2 avqust 2023 №57 (2026)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qardaşlığın söz-sənətlə süslənən təntənəsi

### Azərbaycanda Özbəkistan mədəniyyəti günləri keçirilir

Azərbaycan və özbək xalqlarını yaxın adət-ənənələr, dil və ümumtürk mədəniyyəti birləşdirir. Son illər dövlət başçılarının mütəmadi qarşılıqlı səfərləri, imzalanan sənədlər iki ölkə arasında əlaqələri yüksək səviyyəyə qaldırıb, mədəniyyət sahəsində əməkdaşlığa da yeni məzmun qazandırıb. 1-4 avqust tarixlərində Azərbaycanda keçirilən Özbəkistan mədəniyyəti günləri də qardaş xalqların dostluğunun, doğmalığının növbəti təntənəsidir.



Tədbirlərdə iştirak etmək üçün Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekovun rəhbərliyi ilə geniş nümayəndə heyəti ölkəmizə təşrif buyurub.

Nümayəndə heyəti avqustun 1-də Fəxri xiyabanda Ümummilli lider, Azərbaycan-Özbəkistan əlaqələrinin qurulmasında tarixi xidmətləri olmuş Heydər Əliyevin məzarını ziyarət edib, önünə tər çiçəklər düzüb. Daha sonra Şəhidlər xiyabanında ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsi yad olunub.

Avqustun 1-də axşam Heydər Əliyev Sarayında Özbəkistan mədəniyyəti günlərinin təntənəli açılış mərasimi keçirildi. Tədbirdə dövlət rəsmiləri, iki ölkənin mədəniyyət xadimləri və digər qonaqlar iştirak edirdi.

Mərasimi açan mədəniyyət naziri Adil Kərimli qardaş ölkənin nümayəndə heyətini və tədbir iştirakçılarını salamladı. Azərbaycanda Özbəkistan mədəniyyəti günlərinin xalqlarımızın həyatında əlamətdar hadisə olduğunu deyən nazir bildirdi ki, ümumi tarixə, zəngin mədəniyyətə və ortaq dəyərlərə söykənən möhkəm və davamlı əlaqələr qardaşlığımızın rəmzidir: "Dövlət başçılarımız – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin müstəsna səyləri nəticəsində iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bütün sahələr üzrə əməkdaşlıq inkişaf edir.





Dövlətlərimiz arasında həyata keçirilən əməkdaşlıq təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır. Beynəlxalq və regional təşkilatlar çərçivəsində də uğurla davam edir. Bizlər xalqlarımızın mədəni irsi və dəyərlərinin qorunub saxlanılması, qlobal miqyasda təbliği istiqamətində birgə fəaliyyət göstərir və beynəlxalq müstəvidə vahid mövqedən çıxış edirik. Azərbaycan və özbək xalqlarının görkəmli şəxsiyyətləri dünya mədəniyyətinə, elminə, ədəbiyyatına misilsiz töhfələr veriblər".

Adil Kərimli qeyd etdi ki, Özbəkistan mədəniyyəti günləri dahi şair-mütəfəkkirlər Nizami Gəncəvi və Əlişir Nəvainin zəngin irslərindən bəhrələnən mədəniyyətlərimizin bir-birinə nə qədər yaxın olduğunu bir daha nümayiş etdirəcək: "Xalqlarımızın zəngin mədəniyyəti ümumilikdə türk mədəni irs xəzinəsinə əvəzolunmaz töhfədir. Təsadüfi deyil ki, iki ölkənin prezidentlərinin sərəncamları ilə Azərbaycan və Özbəkistan sənətçiləri yüksək fəxri ad və mükafatlarla təltif ediliblər. Mədəni sahədə əlaqələrin inkişafında Daşkənd şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin rolunu xüsusi qeyd etmək lazımdır. Mərkəz xalqlarımızın bir-birinə yaxınlaşması istiqamətində mühüm layihələr həyata keçirir".

*davamı səh. 2-də*

## Şanlı tarixdən təqvimə düşən günlər

Prezident İlham Əliyev Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə sərəncam imzalayıb.

Sərəncama əsasən, hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunacaq: 26 avqust – Laçın şəhəri günü; 4 oktyabr – Cəbrayıl şəhəri günü; 17 oktyabr – Füzuli şəhəri günü; 20 oktyabr – Zəngilan şəhəri günü; 25 oktyabr – Qubadlı şəhəri günü; 8 noyabr – Şuşa şəhəri günü; 20 noyabr – Ağdam şəhəri günü; 25 noyabr – Kəlbəcər şəhəri günü.

*səh. 2*

## Mədəniyyət Nazirliyi kollegiyasının tərkibində dəyişiklik edilib

Baş nazir Əli Əsədov "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi barədə qərar imzalayıb.

Dəyişikliyə əsasən, kollegiyanın üzvlərinin sayı 9-dan 10-a çatdırılıb.

*səh. 2*

## Hər zaman bizimlə olan bayram




1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü idi. Prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixində imzaladığı fərmana əsasən, həmin il avqustun 1-də ölkə ərazisində bütün idarə və təşkilatlar, Azərbaycan dilində nəşrlər latın qrafikalı əlifbaya keçib. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra, 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifbaya keçid barədə qərar qəbul edilsə də, onun faktiki icrası illərlə uzanmışdı.

On ilə yaxın davam edən latın qrafikalı Azərbaycan əlifbasına keçid 2001-ci ilin 1 avqustunda başa çatdı. Bu, Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə idi. Prezident Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanı ilə 1 avqust "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" elan edildi.

Ana dilimizin və əlifbamızın bayramı bu dildə danışan, düşünən, yaşayan hər birimiz üçün hər gün, hər an bizimlə olan bayramdır.

## Ölkə üzrə mədəniyyət müəssisələrinin monitorinqi aparılır



Mədəniyyət Nazirliyi tərəfindən ölkə ərazisindəki mədəniyyət müəssisələrinin sistemli monitorinqinə başlanılıb.

Monitorinqin nəticələrinə uyğun olaraq, xüsusilə respublikanın rayon və kəndlərində illər ərzində baxımsız vəziyyətdə, fəaliyyətsiz qalmış, təyinatı üzrə istifadə edilməyən mədəniyyət müəssisələrinin işinin təkmilləşdirilməsi və bu sahədə səmərəliliyin təmin edilməsi istiqamətində ardıcıl tədbirlərin görülməsi nəzərdə tutulur.

*səh. 4*

## Kinomuzun yubileylərlə müşayiət olunan günü

2 avqust Azərbaycan Kinosu Günüdür. 1898-ci il avqustun 2-də Bakıda fotoqraf və kinooperator Aleksandr Mişon çəkdiyi bir neçə kinosüjetin kütləvi nümayişini təşkil edib. Bu əlamətdar hadisə ilə Azərbaycanda kinonun tarixi başlanıb. Beləliklə, dünyada kinosunun yaranma tarixi sayılan 1895-ci ildən (Parisdə Lümyer qardaşlarının ilk kinosüjetləri nümayiş etdirməsi) cəmi üç il sonra bu möcüzəli sənət Bakıda da peyda olub.




Sonrakı illərdə sənədli süjetlər tədricən irihəcmli kinolentlərə, bədii filmlərə yol açıb. 1916-cı il mayın 14-də "Neft və milyonlar səltənətində" adlı ilk Azərbaycan bədii filmi ekrana çıxıb. Film İbrahim bəy Musabəyovun əsəri əsasında fransalı Pirone qardaşlarının şəhərdə yaratdıqları "Filma" səhmdar cəmiyyəti tərəfindən Bakı milyonçularının vəsaiti hesabına lentə alınmışdı. 1923-cü ildə Bakıda ilk dövlət kinofabriki (hazırda Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası) yaradılıb.

Ötən dövrdə Azərbaycan kinosu böyük inkişaf yolu keçib. İlk kinosüjetlərlə başlanan sinema yolunun tarixi isə unudulmur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il dekabrın 18-də imzaladığı fərmanla 2 avqust "Azərbaycan Kinosu Günü" elan edilib.

Hər il kino işçilərinin peşə bayramı rəngarəng tədbir və təqdimatlarla yadda qalır. 2023-cü il kinematoqrafiyamız üçün xüsusilə əlamətdardır. Azərbaycan kinosunun 125, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının yaradılmasının isə 100 illiyi qeyd olunur. Bu il eyni zamanda kino sahəsində yaradıcılıq təşkilatının (Azərbaycan Kinematoqrafçılar İttifaqı) fəaliyyətə başlamasının 60 illiyidir. Nəhayət, 2023-cü ildə Azərbaycan Dövlət Film Fondunun yaranmasının 30 illiyidir.

Bu il də Azərbaycan Kinosu Günü silsilə tədbirlərlə müşayiət olunacaq.

Avqustun 2-də Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin təşkilatçılığı ilə təntənəli mərasim keçiriləcək.

*davamı səh. 2-də*

## Vətən müharibəsində azad olunan ilk şəhər

### Necə yenidən qurulacaq?

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"na əsasən, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yerləşən yaşayış məntəqələri layihələndirilir, şəhərlərin Baş planları hazırlanır və təsdiq edilir.

Xəbər verdiyimiz kimi, iyulun 25-də Baş nazir Əli Əsədov Cəbrayıl şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planını təsdiqləyib. Nazirlər Kabinetinin müvafiq qərarı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifi nəzərə alınaraq imzalanıb.

Komitədən bildirilib ki, Cəbrayıl şəhərinin Baş planı Böyük Britaniyanın "Chapman Taylor" şirkəti ilə Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb. Cəbrayıl şəhərinin 1984-cü ildə işlənilmiş Baş planı 258 hektar ərazini əhatə edib. Həmin vaxt şəhər əhalisinin sayı 5200 nəfər olub.

Təsdiq edilmiş yeni Baş planda Cəbrayıl şəhərinin ərazisi yaxınlıqdakı 5 kəndi də əhatə etməklə 625 hektar təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində "yaşıl zolaq" nəzərdə tutulur. Rayon ərazisində bir çox tarixi-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.




*davamı səh. 4-də*

## Başdaşına iki dəfə 1 avqust yazılan adam...



Avqustun 1-də Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Ələkbər Yunus oğlu Muradovun (1948-2013) anadan olmasının 75 illiyi tamam oldu. 1 avqust həmçinin Ələkbər Muradovun dünyadan köçdüyü gündür.

Doğumu və ölümü eyni günə təsadüf edən kino xadimi Bakının Əmircan kəndində kinomexanik ailəsində anadan olub. Azərbaycan Neft-Kimya İnstitutunda və Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsində təhsil alıb.

1973-cü ildən taleyini "Azərbaycanfilm" kinostudiyasına bağlayan Ələkbər Muradov burada "Qərib cinlər diyarında", "Mən mahnı qoşuram", "Qorxma, mən səninləyəm!" bədii filmlərində ikinci operator olub. O, həmçinin "Qaladan tapılan mücrü" (V.Kərimovla birgə), "Zirzəmi", "Müqəddəs oda yanaram", "O dünyadan salam" və s. bədii filmlərin quruluşçu operatorudur. 2002-ci ildə quruluş verdiyi "Güllələnmə təxirə salınır" bədii filmi milli kinomuzda özünəməxsus yer tutur. Ələkbər Muradovun filmoqrafiyasına "Anaya məktub", "Gəmiqaya rəsmləri", "Səadət təranələri", "Odlu ürək", "Nəsirəddin Tusi", "Bakı: müharibə illəri" və s. sənədli filmlər də daxildir.

Qəbələ festivalının rəngarəng konsertləri




*səh. 3*



UİF çərçivəsində sərgi, konsert, görüş

*səh. 3*

№57 (2026)
2 avqust 2023
www.medeniyyet.az

# "Kağızsız hökumət"ə keçid prosesi sürətləndiriləcək

## Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi yaradılır

Prezident İlham Əliyev avqustun 1-də "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" fərman imzalayıb. Fərman dövlət orqanlarında (qurumlarında) kargüzarlığın aparılması sahəsində qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunmaqla "kağızsız hökumət"ə keçid prosesinin sürətləndirilməsi və rəqəmsal idarəçiliyin tətbiq edilməsi məqsədilə imzalanıb.

Fərmanla Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsini təmin edən Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi yaradılır.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi altsistemin 2023-cü il sentyabrın 1-dək formalaşdırılmasını təmin etməlidir.

Nazirlər Kabinetinə idarələrarası elektron sənəd dövriyyəsi sistemi ilə bağlı təkliflərini dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Fərmana əsasən, mərkəzi icra hakimiyyəti orqanları 2023-cü il noyabrın 1-dək, yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər 2024-cü il avqustun 1-dək mövcud elektron sənəd dövriyyəsi sistemlərini altsistemə inteqrasiya etməklə digər dövlət orqanları (qurumları) ilə sənəd mübadiləsinin həmin altsistem üzərindən aparılmasını təmin etməlidirlər. Elektron sənəd dövriyyəsi sistemləri mövcud olmayan dövlət orqanları (qurumları) isə altı ay müddətində bu sistemin yaradılması ilə bağlı tədbirlər görməlidirlər.

# Mədəniyyət Nazirliyi kollegiyasının tərkibində dəyişiklik edilib

Baş nazir Əli Əsədov iyulun 29-da "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi barədə qərar imzalayıb.

Dəyişikliyə əsasən, kollegiyanın üzvlərinin sayı 9-dan 10-a çatdırılıb. "Kollegiyanın üzvləri:" bölməsindən "Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini" sözləri çıxarılıb.

Nazirlər Kabinetinin 2018-ci il 12 sentyabr tarixli Qərarının yeni redaksiyasına əsasən, Mədəniyyət Nazirliyinin kollegiyası bu tərkibdədir: Azərbaycan Respublikasının mədəniyyət naziri (kollegiyanın sədri), Azərbaycan Respublikası mədəniyyət nazirinin müavinləri, Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi, Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru.

# Kinomuzun yubileylərlə müşayiət olunan günü

*əvvəli səh. 1-də*



Mədəniyyət Nazirliyinin təklifi əsasında 2-9 avqust tarixlərində ölkəmizdə fəaliyyət göstərən televiziya kanallarında "Azərbaycan kinosu həftəsi" – klassik filmlərimizin nümayişi nəzərdə tutulur.

Bundan əlavə, Azərbaycan Kinosu Günü, Azərbaycan kinosunun 125, "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi münasibətilə Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə avqustun 3-dən 10-dək kinoteatrlarda "Klassik Azərbaycan filmlərinin retrospektiv baxışı" təşkil olunacaq.

"CinemaPlus" kinoteatrlar şəbəkəsindən verilən məlumata görə, Mədəniyyət Nazirliyi, Kino Agentliyi və "Azərbaycanfilm" kinostudiyası ilə birgə həyata keçiriləcək retrospektiv baxış 1945-ci ilin "Arşın mal alan" filmindən başlayaraq, Azərbaycan kinosunun 40 ildən artıq dövrünü (80-ci illərin sonunadək) əhatə edəcək. Ümumilikdə 20-dək filmin nümayişi nəzərdə tutulub. Seanslara giriş sərbəstdir.

Kino işçilərinin peşə bayramı ərəfəsində sahə üzrə yaradıcılıq qurumları – Azərbaycan Kinematoqrafçılar İttifaqı və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı da ənənəvi mükafatlarının laureatlarını elan edib. Yeri gəlmişkən, peşə bayramı öncəsi iki qurum Azərbaycan kinosu üçün əlamətdar bir qərarı – vahid təşkilatda birləşmək niyyətini də ictimaiyyətə açıqlayıb.

Mədəniyyət tariximiz üçün əlamətdar gün – Azərbaycan Kinosu Günü münasibətilə bu peşəyə könül verib ömrünü həsr edən hər kəsi təbrik edir, kinoseverlərə isə bir həftə ərzində milli kinematoqrafın nümunələrini izləyib zövq almağı arzulayırıq.

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə qərara alıram:

**1.** Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

26 avqust – Laçın şəhəri günü
4 oktyabr – Cəbrayıl şəhəri günü
17 oktyabr – Füzuli şəhəri günü
20 oktyabr – Zəngilan şəhəri günü
25 oktyabr – Qubadlı şəhəri günü
8 noyabr – Şuşa şəhəri günü
20 noyabr – Ağdam şəhəri günü
25 noyabr – Kəlbəcər şəhəri günü.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 31 iyul 2023-cü il**

# Qardaşlığın söz-sənətlə süslənən təntənəsi

*əvvəli səh. 1-də*

Adil Kərimli çıxışının sonunda özbəkistanlı həmkarı başda olmaqla qardaş ölkənin nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnunluq hissi keçirdiyini bildirdi, mədəniyyət günlərinin təşkilatçılarına təşəkkür etdi.

Özbəkistanının mədəniyyət naziri Xalq artisti Ozodbek Nazarbekov çıxış edərək yüksək qonaqpərvərliyə və mədəniyyət günlərinin keçirilməsində dəstəyinə görə Azərbaycan Respublikası Hökumətinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, xalqlarımızı çoxəsrlik dostluq əlaqələri və ortaq tarixi inkişaf yolu birləşdirir. İkitərəfli əlaqələrin möhkəmlənməsində aralarında səmimi, etimada söykənən münasibətlər olan dövlət başçılarımızın mühüm rolu var.








Çıxışlardan sonra Azərbaycan və Özbəkistan incəsənət ustalarının iştirakı ilə geniş konsert proqramı təqdim olundu.

Özbəkistan Dövlət Simfonik Orkestri (dirijor Özbəkistanın Əməkdar artisti Kamoliddin Orinboev), Yusif Rəcəbi adına muğam ansamblının üzvləri, Azərbaycan və Özbəkistanın Xalq artisti Nəsibə Abdullayeva, Özbəkistanın Xalq artistləri Səməndər Alimov, Fərrux Zakirov, Ozodbek Nazarbekov, Azərbaycanın "Dostluq" ordeni mükafatçısı Abduhişam İsmailov özbək musiqisinin bir-birindən gözəl nümunələrini təqdim etdilər.

Azərbaycan və Özbəkistanın Xalq artisti, xanəndə Gülyanaq Məmmədova və Əməkdar artist, tarzən Sahib Paşazadənin ifaları da gecəyə xüsusi rəng qatdı. Qardaş xalqların incəsənət ustalarının çıxışları sürəkli alqışlarla qarşılandı.

Qeyd edək ki, Özbəkistan mədəniyyəti günlərinin zəngin proqramı var. Avqustun 2-də Azərbaycan Milli Kitabxanasında yaradılmış "Özbəkistan ədəbiyyatı və incəsənəti guşəsi" açılacaq. Kitabxanada özbək ədəbiyyatının görkəmli nümayəndəsi, repressiya qurbanı Abdulla Qodirinin (1894-1938) Azərbaycan dilinə tərcümə olunmuş "Ötən günlər" romanının təqdimatı keçiriləcək.

Həmin gün Muqimi adına Özbəkistan Dövlət Musiqili Teatrının kollektivi tərəfindən Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində A.Qodirinin "Ötən günlər" əsəri əsasında hazırlanmış tamaşa nümayiş etdiriləcək.

Avqustun 3-də Özbəkistan Dövlət Musiqili Teatrının yaradıcı heyəti Azərbaycan Dövlət Akademik Musiqili Teatrında azərbaycanlı dramaturq Məcid Şamxalovun əsəri əsasında hazırlanmış "Qayınana" tamaşasını təqdim edəcək. Həmin gün Dənizkənarı Milli Parkda Özbəkistan kulinariya və sənətkarlıq sərgisinin açılışı olacaq.

Avqustun 4-də isə Özbəkistan nümayəndə heyəti üçün mədəni proqram təşkil olunacaq.

Qeyd edək ki, bu ilin oktyabr ayında Özbəkistanda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi nəzərdə tutulur.

**Lalə Azəri**

# Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü Şuşada qeyd olunub

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində Şuşa şəhərində "1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür" mövzusunda tədbir keçirilib.

Tədbiri Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva açaraq bəşər mədəniyyətinin tərkib hissəsi olan dili mədəni dəyərlərin ötürülməsi, qorunması və qavranılmasında mühüm amil kimi səciyyələndirib, ana dilini və əlifbanı millətin siması, milli sərvəti və varlığının təsdiqi adlandırıb.

Qeyd olunub ki, latın qrafikalı Azərbaycan əlifbasına keçidin tam təmin edilməsində, ana dilinin milli dövlətçiliyimizin əsas atributu kimi özünü təsdiq etməsi və qorunmasında, eləcə də dil siyasətinin formalaşdırılmasında Ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, əməli fəaliyyətdə də öz əksini tapıb, Ulu öndər tərəfindən imzalanan fərman və sərəncamlar ölkəmizdə dil siyasətinin mükəmməl konsepsiyasını, uzunmüddətli strategiyasını müəyyən edib.

Mərkəzin direktor müavini dosent Gülarə Əmirovanın "Azərbaycan əlifbasının dünəni və bu günü", filologiya üzrə fəlsəfə doktoru Aynur Paşayevanın "Təhsildə Azərbaycan dili" mövzularında məruzələri dinlənilib.

Sonra Bakı Mühəndislik Universitetinin dosenti Zabitə Teymurlu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, Bakı Avrasiya Universitetinin baş müəllimi filologiya üzrə fəlsəfə doktoru Zəminə Rüstəmbəyli və başqaları çıxış ediblər. Ümummilli liderin ana dilinə sevgisi və qayğısının hər bir azərbaycanlıya örnək olduğu bildirilib. Çıxışlarda İKT, reklam, tibb və digər sahələrdə Azərbaycan dilinin düzgün tətbiqinin zəruriliyi vurğulanıb.

# 32 il sonra ədalət mühakiməsi önünə çıxacaq

## Meşəli qırğınını törədənlərdən biri Laçın yolunda tutulub

1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində azərbaycanlı əhaliyə qarşı törədilən qırğının təşkilində iştirak etmiş Vaqif Xaçaturyanın cinayət məsuliyyətinə cəlb edilməsi beynəlxalq və milli hüquq normalarına uyğundur.

Bunu Azərbaycan Respublikası baş prokurorunun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov deyib.

O bildirib ki, Meşəli hadisələri ilə əlaqədar cinayət işi 1992-ci il yanvarın 11-də başlanıb. Baş Prokurorluğun əməkdaşları tərəfindən Meşəli kəndində hadisə yerinə baxış keçirilib, hadisə yerinin fotoları təqdim olunub. Uzun müddət aparılmış istintaq nəticəsində Xaçaturyan Vaqif Çerkezoviçin şəxsiyyəti müəyyən edilib və o, 2013-cü ildən beynəlxalq axtarışa verilib.

Qeyd edək ki, iyulun 29-da Azərbaycan Respublikası Baş Prokurorluğu Meşəli qırğınını törədənlərdən birinin saxlanılması barədə məlumat yayıb. Məlumatda bildirilir ki, qanunsuz erməni silahlı birləşmələrinin üzvləri tərəfindən 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində Azərbaycan milliyyətindən olan şəxslərin soyqırımı, deportasiyası, kənd sakinlərinə və dövlətə məxsus çoxsaylı əmlakı məhvetmə və zədələməklə külli miqdarda maddi ziyanın vurulması faktları üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə prokurorluq orqanları tərəfindən başlanmış cinayət işinin istintaqı davam etdirilir.

İstintaqla müəyyən olunub ki, 1991-ci il 22 dekabr tarixində 1955-ci il təvəllüdlü, Azərbaycan Respublikasının vətəndaşı, Əsgəran rayonunun (1991-ci ildən Xocalı rayonu – red.) Badara kəndində doğulmuş, Xankəndi şəhər avtomobil nəqliyyatı müəssisəsində sürücü işləmiş Xaçaturyan Vaqif Çerkezoviç erməni milliyyətindən olan digər şəxslərlə birgə Meşəli kəndində yaşayan azərbaycanlıları bir milli qrup kimi bütövlükdə məhv etmək məqsədilə həmin kəndə silahlı basqın edib. Basqın nəticəsində 25 nəfər azərbaycanlı milliyyətindən olan şəxs öldürülüb, 14 nəfər şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib, 358 nəfər azərbaycanlı isə yaşadıqları yerlərdən didərgin salınıb.

Aparılan cinayət işi üzrə kifayət qədər əsaslı şübhələr yarandığından Xaçaturyan Vaqif Çerkezoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərar qəbul edilib, lakin olduğu yer istintaqa məlum olmadığına görə barəsində 2013-cü il noyabrın 12-də beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

2023-cü il iyulun 29-da Vaqif Xaçaturyan Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə müalicə almaq adı altında Ermənistan Respublikasına getmək istəyərkən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb.

Ermənistana müalicə üçün getmək istədiyi deyilən V.Xaçaturyan Bakı şəhərində tibb müəssisəsinə yerləşdirilib, zəruri tibbi yardımın göstərilməsi, həmçinin BQXK-nın nümayəndələrinin ona baş çəkməsinə şəraitin yaradılması təmin edilib.

V.Xaçaturyan cinayət məsuliyyətinə cəlb edilməsinin beynəlxalq və milli hüquq normalarına uyğun olduğunu qeyd edən Baş Prokurorluğun idarə rəisi Mahir Abbasov diqqətə çatdırıb ki, qüvvədə olan cinayət qanunvericiliyinə, əsasən cinayət məsuliyyətinə cəlb etmə müddəti sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə şamil edilmir.

# Qəbələ festivalının rəngarəng konsertləri

## Beynəlxalq musiqi şöləni avqustun 2-də başa çatır

Xəbər verdiyimiz kimi, Azərbaycanın dilbər guşələrindən olan qədim Qəbələ növbəti beynəlxalq musiqi bayramına ev sahibliyi edir. Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə 27 iyul – 2 avqust tarixlərində XIII Beynəlxalq Qəbələ Musiqi Festivalı keçirilir. Festivalda ölkəmizlə yanaşı, Türkiyə, Böyük Britaniya, Estoniya, Litva, Polşa və Rusiyadan da musiqiçilər iştirak edirlər.





Festivalın ikinci günü, iyulun 28-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsi çərçivəsində gənc ifaçıların iştirakı ilə növbəti konsert proqramı təqdim olunub.

Festivalın təşkilatçı qurumlarının təmsilçilərinin, yerli musiqisevərlərin və şəhərin qonaqlarının izlədiyi konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları səhnəyə çıxıblar. Tamilla Əhədova (piano), Nərminə İsmayılova (piano), Camalə Abdinzadə (piano), Çinarə Əzimova (soprano), Surə Rüfət (violin), Humay Hacızadə (viola), Aytən Rüstəmli (kamança), Mirxalid Məmmədzadə (fleyta), Cəlil Bəşirli (tar) və Vaqif Qurbanovun (cello) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. İfaçıları pianoda Svetlana Əhmədova, Rəfiqə Quluzadə və Nuridə Novruzova müşayiət ediblər.

Proqramda F.Əmirov, F.Əlizadə, P.Çaykovski, J.Bize, V.Horovits, V.Monti, R.Şuman və digər bəstəkarların əsərləri səsləndirilib.

***

Qəbələ festivalının proqramında da bu il yubileyləri qeyd olunan görkəmli bəstəkarlara həsr edilmiş konsertlər də yer alıb. Festival çərçivəsində iyulun 28-də axşam açıq səhnədə təqdim olunan musiqi proqramı məşhur rus bəstəkarı Sergey Raxmaninovun (1873-1943) 150 illik yubileyinə həsr edilib.

Konsertdən əvvəl çıxış edən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva bildirib ki, Qəbələ festivalının gözəl ənənələrindən biri də dünya musiqi mədəniyyətinə böyük töhfələr verən bəstəkarların, ifaçıların yubileylərini qeyd etmək, onların əsərlərini səsləndirməklə xatirəsini yada salmaqdır: "Bu il 150 illiyi qeyd olunan Sergey Raxmaninov musiqisində bəşəri səs, harmoniya var. Məhz bu bəşəri bağlantını daha gözəl surətdə festival iştirakçılarına çatdırmaq üçün Raxmaninovun musiqisini digər bir dahinin – Vilyam Şekspirin sonetləri ilə birləşdirib diqqətinizə çatdırırıq".

Konsertin birinci hissəsində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov) ifasında S.Raxmaninovun "Piano və orkestr üçün konsert" əsəri səsləndirilib.

Sonra respublika və beynəlxalq müsabiqələr laureatı Əli Məmmədov (piano) orkestrin müşayiəti ilə bəstəkarın digər əsərlərini ifa edib.

S.Raxmaninovun yubileyinə həsr olunan daha bir konsert iyulun 31-də Heydər Əliyev Konqres Mərkəzində gerçəkləşib. Bəstəkarın həyat və yaradıcılığı barədə məlumat verildikdən sonra Mixail Lidski (Rusiya, piano), Xalq artisti, pianoçu Murad Adıgözəlzadə və Henri-David Varema (Estoniya, violonçel) tamaşaçılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər.

Konsertdə bəstəkarın "Piano və violonçel üçün sonata – sol minor", piano üçün prelüdlər, etüd-lövhələr, "Barkarola", "Qırıntılar" əsərləri səsləndirilib.

***



Festival çərçivəsində iyulun 29-da axşam saatlarında Heydər Əliyev Konqres Mərkəzində tamaşaçılara kamera musiqisi təqdim olunub.

Respublika və beynəlxalq müsabiqələr laureatları Atəş Qarayev (tenor), Mahir Tağızadə (bariton), Osman Mustafazadə (skripka), Humay Hacızadə (viola), Ərol Rzayev (violonçel), Nərminə İsmayılova (piano), Əli Günəşov (faqot), Əhməd Əhmədov (klarnet) və başqalarının çıxışları tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Konsertdə M.Qlinkanın "Patetik trio", F.Listin "2 nömrəli konsert etüdü", Q.Donizettinin "Luçiya di Lammermur" operasından Edqarın ariyası, P.İ.Çaykovskinin "Yevgeni Onegin" operasından Lenskinin ariyası, C.Puççininin "Canni Skiki" operasından Canni Skikinin ariyası, V.A.Motsartın "Hamı belə edir" operasından Qulyelmonun ariyası və digər bəstəkarların əsərləri səsləndirilib.

***

Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində gerçəkləşən daha bir konsert kamera musiqisinə və "Clarte" klarnet kvartetinin ifasına həsr olunub.

Kamera musiqisi axşamında beynəlxalq müsabiqələr laureatları Nigar Cəfərova (soprano), Elmina Həsənova (mezzo-soprano), Məryəm Yusifova (piano), Eldəniz Ələkbərzadə (piano), Nərgiz Kəngərli (piano), Şəms Ağazadə (violin), Vaqif Qurbanov (violençel) və Gülnaz Eldarlı (piano) maraqlı ifaları ilə sənətsevərlərin könlünü oxşayıblar.

Sonra səhnə "Clarte" klarnet kvartetinin ixtiyarına verilib. Konsertdə A.Məlikovun "Ötəri anlar", Q.Qarayevin "Səs və piano üçün romans", V.Məmmədzadənin "Trio", R.Mirişlinin "Səadət", P.Bülbüloğlunun "Mənim Bakı şəhərim", R.Hacıyevin "Saçlarına gül düzüm", "Leyla", həmçinin Avropa bəstəkarlarından A.Berq, V.Gervasi, E.Doqa, F.List, R.Ştraus, G.Faure və F.Şubertin əsərləri səsləndirilib.

Kvarteti pianoda Ceyhun Əliyev, zərb alətlərində Ramiz Sevdiməliyev müşayiət ediblər.

"Clarte" klarnet kvarteti 2016-cı ildə Xalq artisti Şükür Səmədovun təşəbbüsü ilə yaradılıb. Kvartetin bədii rəhbəri Anar Məmmədov, üzvləri istedadlı klarnet ifaçıları Şərif Bağırov, Məhəmmədəli Paşazadə və Emil Bağırovdur.

***

Festival çərçivəsində iyulun 31-də axşam musiqisevərlər Heydər Əliyev Konqres Mərkəzində növbəti konsert proqramını izləyiblər. Bakı Kamera Orkestrinin təqdim etdiyi konsert dünyaca məşhur pianoçu Bella Davidoviçin 95 illik yubileyinə həsr olunub.

1928-ci ildə Bakıda doğulan Bella Davidoviç Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) nəzdində musiqi məktəbini bitirib. Sonra Moskva Dövlət Konservatoriyasında ali təhsil alıb. 60-70-ci illərdə müxtəlif ölkələrdə konsertlər verərək dünya şöhrəti qazanan ifaçı 80-ci illərdə ABŞ-yə köçüb.

Konsertin birinci hissəsində orkestr Bella Davidoviçin oğlu Dmitri Sitkovetskinin (Böyük Britaniya) dirijorluğu ilə İ.S.Baxın "Simlilər üçün 1 nömrəli rəqs süitası"nı təqdim edib.

Dmitri Sitkovetski tanınmış dirijor olmaqla yanaşı, həmçinin virtuoz skripka (violin) ifaçısıdır. Konsertin birinci hissəsində D.Sitkovetski Bakı Kamera Orkestrinin müşayiəti ilə violində A.Raskatovun violin, simlilər və zərb aləti üçün "V.A.Motsartın həyatından beş dəqiqə", A.Pyartın violin, simlilər və zərb aləti üçün "Qardaşlar", Bella Bartokun violin və simlilər üçün "Rumın xalq rəqsləri", S.Raxmaninovun simlilər üçün "Vokaliz", F.Əmirovun "Nizami" simfoniyasından II və IV hissələr, F.Əlizadənin simlilər üçün "Rəqs", L.Desyatnikovun simlilər üçün "Bukovina mahnıları" əsərlərini ifa edib.

Bakı Kamera Orkestri 2011-ci ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin təşəbbüsü ilə yaradılıb. Orkestrin tərkibinə beynəlxalq müsabiqə laureatları və istedadlı ifaçılar daxildir. Orkestrin bədii rəhbəri Xalq artisti Fərhad Bədəlbəyli, baş dirijoru Əməkdar artist Fuad İbrahimovdur.

XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı avqustun 2-də başa çatacaq.

# Uşaq İncəsənət Festivalı çərçivəsində...

## Sərgi, konsert, görüş

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilən Uşaq İncəsənət Festivalının (UİF) ikinci mərhələsi davam edir.





İyulun 29-da Lənkəran şəhər Heydər Əliyev Mərkəzində rayon üzrə festivalın I mərhələsində tətbiqi-dekorativ sənət, rəssamlıq və heykəltaraşlıq nominasiyalarında uğur qazanmış şagirdlərin əl işlərindən ibarət sərgi təşkil edilib.

Lənkəran şəhər Heydər Əliyev Mərkəzi, şəhər Uşaq rəssamlıq məktəbi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ziyarətçilər gün ərzində sərgidə yer alan əl işləri ilə tanış olublar.

***

Masallı şəhər Uşaq incəsənət məktəbində rayon üzrə UİF-nin I və II mərhələsində musiqi və rəqs nominasiyalarında uğur qazanmış uşaqların konserti keçirilib.

Əvvəlcə tədbir iştirakçıları festivalda rəsm nominasiyası üzrə uğur qazanmış Masallıdan olan rəssamların əl işlərindən ibarət sərgiyə baxıblar. Çıxışlarda UİF-nin əhəmiyyətindən bəhs edilib. Sonra konsert proqramı təqdim olunub.

***

Yardımlı rayonu üzrə UİF-nin I mərhələsində rəsm və dekorativ-tətbiqi sənət nominasiyalarında uğur qazanmış şagirdlərin rayon ictimaiyyəti ilə görüşü keçirilib. Rayon İcra Hakimiyyəti, Heydər Əliyev Mərkəzi və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Festivalda uğurla iştirak edən Kəmalə İbişli öz təəssüratlarını bölüşüb. Sonda şagirdlərin əl işlərindən ibarət sərgiyə baxış olub.

***

Festivalın I və II turlarında uğur qazanan Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki Gəncə şəhər Uşaq incəsənət məktəbi şagirdlərinin şəhər Heydər Əliyev Mərkəzində sərgisi təşkil olunub.

RMİ-nin rəis vəzifəsini müvəqqəti icra edən Pərvin Kazımov müsabiqədə uğur qazanan şagirdləri təbrik edərək onlara nailiyyətlər arzulayıb.

Daha sonra şəhər Uşaq incəsənət məktəbi Vokal şöbəsinin 3-cü sinif şagirdi Əmirxan Oruclu və Gəncə şəhər F.Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbinin qızlardan ibarət kanon ifaçıları ansamblı tərəfindən Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri ifa olunub, rəqs nömrələri təqdim edilib.



***

Şəki-Zaqatala RMİ-nin təşkilatçılığı ilə Şəki şəhər Heydər Əliyev Mərkəzində rayon üzrə UİF-nin I və II turunda iştirak edən uşaqların konserti təşkil olunub. Əvvəlcə rayon üzrə festivala qatılmış istedadlı uşaqların rəsmlərindən ibarət sərgi nümayiş etdirilib. Konsertdə Şəki şəhərində yerləşən uşaq incəsənət və musiqi məktəblərinin şagirdləri, R.Ocaqov adına Şəki şəhər Uşaq-gənclər inkişaf mərkəzinin özfəaliyyət kollektivləri, rəqs qrupları və s. çıxış ediblər.

***

Zaqatala rayon Heydər Əliyev Mərkəzində rayon üzrə rəssamlıq nominasiyasında UİF-nin II mərhələsinə vəsiqə qazanmış uşaqların əl işlərinin sərgisi keçirilib.

Əvvəlcə şagirdlər mərkəzin fəaliyyəti ilə tanış olub, onlara Ulu öndərin həyatı və siyasi fəaliyyətini əks etdirən eksponatlar haqqında məlumat verilib.

Daha sonra qonaqlar sərgi ilə tanış olublar.

**Nurəddin**

# ICESCO-dan aerokosmik tədqiqatlara və sülh mədəniyyətinə dəstək

Türkiyənin İstanbul şəhərində İslam Dünyası, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən 31 iyul – 5 avqust tarixlərində Peyk Modeli Təlimi və Aerokosmos Simpoziumu (Model Satellite (CanSat) Training Workshop & Aerospace Symposium) keçirilir.

Bakı Dövlət Universitetinin (BDU) də həmtəşkilatçı olduğu tədbirin əsas məqsədi İslam dünyasının ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında kosmik tədqiqatlar sahəsinə marağın artırılması, bu sahədə fundamental və təcrübi bilik və bacarıqların formalaşdırılması, yerli kadrların yetişdirilməsini təmin etməkdir.

Simpoziumun İstanbul Texniki Universitetində keçirilən açılış tədbirində ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, universitetin prorektoru, Aeronavtika və kosmonavtika fakültəsinin dekanı Zahit Mecitoğlu və başqaları çıxış ediblər.

Tədbirə onlayn qoşulan BDU-nun rektoru Elçin Babayev universitetdə astrofizika və kosmos elmlərinin tədrisindən danışıb. Bildirib ki, BDU-nun ICESCO və İstanbul Texniki Universiteti ilə də əməkdaşlığı uğurla inkişaf edir.

Simpozium çərçivəsində sərgidə BDU komandası tərəfindən hazırlanan "CanSat1919" və "CubeSat" model peykləri də nümayiş olunur.

***

Hazırkı şəraitdə dialoq və anlaşma, mədəni mübadilə üçün yeni üfüqlər açmaq, mərhəmət dəyərlərini təbliğ etmək, nifrət və təhriklərə qarşı çıxmaq müxtəlif dinlərə və sivilizasiyalara mənsub olan xalqların qarşısında duran əsas vəzifələrdir.

Bu fikir isə iyulun 27-də Mərakeşin Rabat şəhərində ICESCO mənzil-qərargahında sülh mədəniyyətinin dəstəklənməsinə, Qərb və İslam ölkələrinin münasibətlərinə həsr olunmuş beynəlxalq konfransda vurğulanıb. Təşkilatdan verilən məlumatda bildirilir ki, tədbir Almaniyanın "Mouatana" Dialoq və Anlaşma İnstitutu ilə birgə keçirilib.

ICESCO-nun baş direktoru Salim əl-Malik ekspertləri Qərbin ən inkişaf etmiş dövlətlərindən olan Almaniya ilə İslam aləmi arasındakı unikal əlaqələrin üzərində düşünməyə, onu tədqiq etməyə və öyrənməyə dəvət edib. Vurğulayıb ki, bu münasibətlər tolerantlıq və dini-mədəni dəyərlərə qarşılıqlı hörmət baxımından təqdirəlayiqdir. Baş direktor İslam mədəniyyətinin əsrlər boyu tədqiqatçılar üçün zəngin bir araşdırma sahəsi olduğunu diqqətə çatdıraraq alman mütəfəkkirlərinin ərəb-İslam mədəniyyəti xəzinələrinin dünyaya tanıdılmasında xüsusi rolunu qeyd edib.

Konfransda alman, ingilis alimləri, eləcə də İslam ölkələrindən alimlər çıxış ediblər.

# Laçınlı günlər artıq gerçəkdir

## Doğma şəhərə qayıdan ailə sayı 180-ə çatıb

Otuz ildən artıq yurdlarından ayrı düşən laçınlılar doğma elinə qovuşur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin mərhələli şəkildə qayıdışı davam edir.




İyulun 28-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Həmin gün Laçın şəhərinə 16 ailə köçürülüb.

İyulun 31-də isə Laçın şəhəri 12 ailəyə qucaq açıb. Ailələr şəhərdə coşqu ilə qarşılanıb, onlara yaşayacaqları evlərin açarları təqdim olunub.

Bununla da Laçın şəhərində 180 ailənin (700 nəfər) daimi məskunlaşması təmin edilib.

Xatırladaq ki, Laçın şəhərinə sakinlərin qayıdışı mayın 28-də başlayıb və indiyədək 10 köç həyata keçirilib. İlin sonunadək ümumilikdə şəhərə 700-ə yaxın ailənin qayıdışı gözlənilir.

# Ölkə üzrə mədəniyyət müəssisələrinin monitorinqi aparılır

## Səyyar monitorinq qrupları bölgələrə ezam olunub

Mədəniyyət Nazirliyi tərəfindən ölkə ərazisindəki mədəniyyət müəssisələrinin sistemli monitorinqinə başlanılıb.

Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2023-cü il tarixli sərəncamına uyğun olaraq, Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin yenidən təşkil edilməsindən sonra ölkə ərazisindəki mədəniyyət müəssisələrinin mövcud vəziyyətinin hərtərəfli qiymətləndirilməsi, qəzalı, yararsız və fəaliyyətsiz müəssisələrin müəyyən edilməsi, bu istiqamətdə məlumatların sistemləşdirilməsi məqsədilə səyyar monitorinq qrupları təşkil edilərək bölgələrə ezam olunub.

Monitorinq prosesi ölkə üzrə 64 rayonu əhatə etməklə 4500-ə yaxın müəssisədə aparılır.

Monitorinqin nəticələrinə uyğun olaraq, xüsusilə respublikanın rayon və kəndlərində illər ərzində baxımsız vəziyyətdə, fəaliyyətsiz qalmış, təyinatı üzrə istifadə edilməyən mədəniyyət müəssisələrinin işinin təkmilləşdirilməsi və bu sahədə səmərəliliyin təmin edilməsi istiqamətində ardıcıl tədbirlərin görülməsi nəzərdə tutulur.

# Açıq havada səyyar kitabxana xidməti

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Oxuculara xidmət şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində yerləşən "Nizami" adına mədəniyyət və istirahət parkında səyyar kitabxana xidməti təşkil olunub.

Sərgi zamanı kitabxananın fonduna daxil olan yeni kitablar, bədii və xarici ədəbiyyat, ümumilikdə oxucuların marağını cəlb edəcək müxtəlif başlıqlar altında kitablar nümayiş olunub.

Yay mövsümündə Mərkəzi Kitabxana tərəfindən rayon ərazisində fəaliyyət göstərən digər istirahət və mədəniyyət parklarında da bu kimi xidmətlərin göstərilməsi nəzərdə tutulub.

# Horadiz–Zəngilan avtomobil yolu təmir olunur



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun ərazisində mövcud Horadiz–Zəngilan avtomobil yolunun əsaslı təmiri işlərinin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında ölkə başçısının sərəncamına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidənqurma işlərinə start verilib.

Təmir-tikinti işləri M-6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (km 173+600 – km 235+000) 61.4 km-lik Horadiz-Zəngilan hissəsində həyata keçirilir.

III texniki dərəcəyə uyğun olaraq əsaslı şəkildə yenidən qurulan yolun torpaq yatağının eni 12 metr təşkil edir. Layihə üzrə əsaslı təmir işləri 173.6-189, 189-205, 205-220 və 220-235-ci km-lər daxil olmaqla 4 hissədə aparılır.

Hazırda yolboyu mövcud asfalt-beton örtüyün kənarlaşdırılması, qazma, tökmə işləri, yol yatağının və yol əsasının tikintisi, suların ötürülməsini təmin etmək məqsədilə müxtəlifölçülü suötürücü boruların inşası, körpülərin təmiri, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri görülür.

# Vətən müharibəsində azad olunan ilk şəhər

## Cəbrayıl necə yenidən qurulacaq?

*əvvəli səh. 1-də*



Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 min sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb, burada az və orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82 faizinin çoxmənzilli binalarda, 18 faizinin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb.

Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək.

Nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Şəhərdaxili yol profillərində təxminən 60 kilometr uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 kilometrdən çox olacaq.

Baş planda əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Şəhər ərazisində 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb.

Cəbrayıl şəhərinin coğrafi mövqeyi və relyefi də onun yaşıllıqlara qərq olmuş məkan kimi planlaşdırılmasına imkan verib. Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18 faizi yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən "yaşıl zolaq" mərkəzi park kimi müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək.

# Milli sərvətimiz olan dövlətçilik irsi

"Heydər Əliyev İli" münasibətilə bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilir.





Ağdaş rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyevin siyasi irsi milli sərvətimizdir!" mövzusunda tədbir təşkil edilib. Çıxışlarda Ulu öndərin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsində müstəsna xidmətlərindən bəhs edilib.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında "Heydər Əliyev fenomeni gəncliyin gözü ilə" adlı dəyirmi masa keçirilib. Qeyd olunub ki, Ulu öndər hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə respublikada peşəkar gənc kadrların hazırlanmasında müstəsna rol oynayıb. Azərbaycanda hərbi məktəbin yaradılması, minlərlə gəncin ittifaqa daxil olan respublikaların nüfuzlu ali məktəblərinə göndərilməsi Ulu öndərin tarixi xidmətlərindəndir. Çıxış edənlər müstəqillik illərində Heydər Əliyevin gəncliyə qayğısından, bu siyasətin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsindən də danışıblar.

***

Lerik rayon Heydər Əliyev Mərkəzində Lənkəran-Astara Gənclər İdman İdarəsinin Lerik rayon sektoru ilə birgə Heydər Əliyevin 100 illik yubileyi münasibətilə gənclər arasında intellektual bilik yarışı keçirilib. Yarışın məqsədi gənclərin asudə vaxtının səmərəli təşkili, həmçinin bilik və bacarıqlarının, o cümlədən məntiqi düşüncə və dünyagörüşlərinin inkişafına şərait yaratmaqdır.

Ulu öndərin zəngin siyasi irsi barədə səsləndirilən suallar komandalar tərəfindən cavablandırılıb. Qaliblər növbəti mərhələdə iştirak hüququ qazanıblar. Tədbirdə Ümummilli liderin xalqımız və dövlətçiliyimiz qarşısında xidmətlərindən danışılıb.

# Vətən sizi unutmaz!





N.Nərimanov adına Sumqayıt şəhər Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Səlimxan Bayramovun doğum günü ilə əlaqədar "Vətən sizi unutmaz!" adlı tədbir keçirilib. Tədbirdə şəhidin döyüş yolundan bəhs edən səhnəcik nümayiş olunub. Səhnəcikdə Səlimxan rolunu aktyor Elay Xasıyev, ana obrazını isə Əməkdar artist İlahə Səfərova canlandırıb. Sonda vətənpərvərlik ruhlu mahnılar ifa olunub.

1998-ci ildə Sumqayıt şəhərində doğulan S.Bayramov Vətən müharibəsində oktyabrın 19-da Xocavənd uğrunda döyüşlərdə şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

***

Bərdə rayonunun Yeni Daşkənd kəndində Birinci Qarabağ müharibəsi şəhidi Ziya Quliyevin xatirəsi anılıb. Əvvəlcə tədbir iştirakçıları kənddəki şəhidlər abidəsini ziyarət ediblər. Çıxış edənlər şəhidlərin şücaətindən danışıblar.

Bildirilib ki, Ziya Yelmar oğlu Quliyev 1973-cü il iyulun 29-da Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra silaha sarılaraq Vətənin müdafiəsinə qalxıb. Laçın, Kəlbəcər bölgələrində gedən döyüşlərdə iştirak edib. 1993-cü il aprelin 2-də Kəlbəcər rayonu uğrunda şəhid olub.

***

E.Hüseynov adına Qazax rayon Mərkəzi Kitabxanasında 44 günlük Vətən müharibəsinin Qazax şəhidlərinin xatirəsinə həsr olunmuş "Müqəddəs and yerimiz" adlı tədbir təşkil edilib. Əvvəlcə doğum günləri iyul ayında qeyd olunan Vətən müharibəsinin Qazax şəhidlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra şəhidlər – çavuş Kamil Kərimov, baş leytenantlar Nəbi Hüseynov, Xaliddin Nəsibov, baş çavuş İsmayıl Qəsəbov və əsgər Anar Vəliyevin ömür yollarından epizodlar nümayiş olunub.

**Hazırladı: N.Məmmədli**

# Beşbarmaq dağında arxeoloji qazıntılar

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Arxeologiya və Antropologiya İnstitutu tərəfindən Beşbarmaq dağında aparılan arxeoloji qazıntı işləri ilə tanış olub.

AMEA-dan bildirilib ki, ərazidə ekspedisiya üzvləri ilə görüşən İsa Həbibbəyli Azərbaycan tarixinin dərindən və hərtərəfli araşdırılıb öyrənilməsində arxeoloji tədqiqatların böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Arxeologiya və Antropologiya İnstitutunun direktoru vəzifəsini icra edən tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev Beşbarmaq dağında fəaliyyət göstərən ekspedisiya haqqında ümumi məlumat verib.



Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin sədrinin müşaviri Elşən Mustafayev Beşbarmaq qoruğunun ərazisindəki tarixi yerlər və burada gəzinti, eləcə də dini ziyarət üçün yaradılmış yeni əlverişli şərait barədə ətraflı söz açıb.

Beşbarmaq arxeoloji ekspedisiyasının rəhbəri, Arxeologiya və Antropologiya İnstitutunun böyük elmi işçisi Sevinc Hüseynova və arxeoloq, tarix elmləri doktoru Səfər Aşurov ərazidə aparılan qazıntılar zamanı aşkara çıxarılmış qədim tarixi yaşayış yerləri və burada tapılmış maddi mədəniyyət nümunələri haqqında əhatəli məlumat veriblər.

Bildirilib ki, ölkə başçısının 2020-ci il 8 iyun tarixli sərəncamı ilə "Beşbarmaq dağı" Dövlət, Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması ərazinin arxeoloji cəhətdən öyrənilməsinə geniş imkan yaradıb. Dövlət Turizm Agentliyi və AMEA Arxeologiya və Antropologiya İnstitutu arasında imzalanmış müqaviləyə əsasən 2020-ci ildən qoruq ərazisində arxeoloji tədqiqatlara başlanılıb.

Qeyd edilib ki, Beşbarmaq arxeoloji ekspedisiyası tərəfindən Dövlət Turizm Agentliyinin maliyyə dəstəyi ilə aparılan elmi-tədqiqatların əsas məqsədi Beşbarmaq qalasının, müdafiə səddinin və digər tikililərin memarlıq xüsusiyyətlərini, dövrünü müəyyənləşdirməkdən ibarətdir. Əsas arxeoloji materialların əsasən Orta əsrlərə aid olmasına baxmayaraq, Erkən Tunc dövrünün xarakterik xüsusiyyətini əks etdirən maddi mədəniyyət nümunələri də aşkar edilib ki, bu da eradan əvvəl III minillikdən Beşbarmaq dağının bölgədə məskunlaşan əhalinin sitayiş məskəni olduğunu göstərir.

Qazıntı yerlərinə və tapılmış maddi mədəniyyət nümunələrinə baxış keçirildikdən sonra AMEA-nın prezidenti arxeoloqlara və institut rəhbərliyinə müvafiq tövsiyə və tapşırıqlarını verib.

# "Bəyin oğurlandığı" kənd



1984-cü ildə "Azərbaycanfilm" kinostudiyası o vaxt gənc olan rejissorlar Vaqif Mustafayev və Ceyhun Mirzəyevə yazıçı Mövlud Süleymanlının ssenarisi əsasında "Bəyin oğurlanması" filminin çəkilişlərini həvalə edir. Kəndə toy mövzusunda bədii-etnoqrafik film çəkməyə gələn kino işçilərinin fəaliyyətindən bəhs edən ekran işi (film içində film) Azərbaycan kinosunun geniş tamaşaçı rəğbəti qazanan nümunələrindəndir.

Filmin əsas səhnələri Azərbaycanın əsrarəngiz təbiətə və qədim tarixə malik bölgələrindən olan Şamaxının Məlhəm kəndində çəkilib. Əsas qəhrəmanların – İsrafil və Həsənin evləri filmdən sonra kəndin ən məşhur evlərinə çevrilib.

Filmin qəhrəmanı İsrafilin (Xalq artisti Yaşar Nuri) yaşadığı evin sahibi Nazim Əmirov deyir ki, bu ev ona atasından qalıb. Ev bu gün filmdə olduğu görkəmdədir. Filmdə İsrafilin idarə etdiyi maşın ("Jiquli") da Nazim Əmirovun atasına məxsus olub: "1984-cü ildə film çəkiləndə ev necə olubsa, bu gün də elə qalır. Evin daxilində, həmçinin xaricində heç bir yenilik etməmişik. Kino çəkilişlərinin əsas hissəsi burada aparılıb. Bura qız evi idi, elçilik, gəlin köçürülmə, rəqslərin əksəriyyəti bizim həyətdə, bu evdə lentə alınıb", – deyə o AZƏRTAC-ın müxbiri ilə söhbətində bildirib.



Kütləvi çəkilişlərdə iştirak edənlərin əksəriyyəti kənd camaatı olub. Sakin Rasim Ələsgərov deyir: "Aktyorlar tez-tez qonağım olardılar. Sentyabr ayından dekabradək film çəkildi. Camaat necə lazımdırsa, kömək də etdi, iştirak da. Çox məşhur film oldu. Bizi görənlər kinonun harada çəkilməyini soruşardılar. Deyəndə də ki, bizim kənddə, inanmazdılar".

Çəkilişlər Şamaxıda üzüm yığımı vaxtına təsadüf edib. Kənd sakini Faiq Əlibəyov nəinki filmdə, kadr arxasında da gülməli hadisələr baş verdiyini deyir. Belə hadisələrdən biri Miriş obrazını canlandıran Xalq artisti Arif Quliyevin başına gəlib: "Film bizim qonşuda çəkilib, o günlərin şahidiyəm. O vaxt Şamaxıda kütləvi üzüm yığılırdı. Bir gün xəbər çıxdı ki, Arif Quliyevi Şamaxıda tutub aparıblar (o vaxtlar keçmiş SSRİ-də əmək intizamının ən sərt vaxtları idi, pambıq, üzüm yığımı vaxtı da kənddə, ara-bərədə kimsə boş-bekar gəzə bilməzdi – red.) üzüm yığmağa. Sonra onu axtarıb tapdılar, dedilər ki, səhv olub, bu, aktyordu, çəkilişdə iştirak etməlidir. İndi filmə baxanda o günləri xatırlayırıq".

"Bəyi oğurlanması" filmi 1985-ci ildə ekrana çıxıb. Artıq 38 ildir ki, bu filmin hər epizodu tamaşaçılarda təbəssüm, nostalji hisslər yaradır. Ekran əsəri bu gün də sevə-sevə izlənilir, filmdə səslənilən ifadələr dillər əzbərinə çevrilib.

Qeyd edək ki, Şamaxı rayonunun Məlhəm kəndində "Bəyin oğurlanması" filmindən savayı "Qaraca qız", "Qaçaq Nəbi", "Dədə Qorqud", "Yeddi oğul istərəm" kimi filmlərin bəzi epizodları çəkilib.

## Memarlıq ixtisası üzrə qabiliyyət imtahanı keçiriləcək

Memarlıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanında iştirak etməsi üçün ərizə qəbulu iyulun 25-dən 30-dək aparılıb və bu müddət ərzində 324 nəfər qeydiyyatdan keçib. Abituriyentlər imtahana buraxılış vərəqəsini çap edə bilərlər.

Bu barədə Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, memarlıq ixtisası üzrə qabiliyyət imtahanı avqust 4-5-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin idman kompleksində keçiriləcək.

Xatırladaq ki, abituriyentlər və subbakalavrlar yalnız rəsm fənnindən imtahan verirlər. İmtahandan 10 ballıq şkala üzrə 6 və daha yuxarı bal toplayanlar məqbul qiymət almış hesab edilir və memarlıq ixtisası üzrə ixtisas seçimində iştirak etmək hüququ qazanırlar.

## "Kimlər gəldi, kimlər getdi"

### Mirzə Babayevin yubileyi münasibətilə konsert




Bu il Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, müğənni, aktyor, Xalq artisti Mirzə Babayevin (1913-2003) anadan olmasının 110 illiyidir.

Sentyabrın 28-də Heydər Əliyev Sarayında sənətkarın yubileyinə həsr edilmiş konsert keçiriləcək. Musiqi gecəsində unudulmaz müğənninin repertuarından tanınmış incəsənət xadimlərinin ifasında mahnılar səsləndiriləcək. Konsert proqramına Mirzə Babayevin ifasında qəlbləri fəth etmiş "Liman", "Saçlarına gül düzüm", "Sən uzaq, yaşıl ada", "Kimlər gəldi, kimlər getdi", "Kəpənək", "Zəfəran", "Çay" mahnıları daxil edilib.

Konsertin biletlərini iTicket.az saytı və şəhərin kassalarından əldə etmək mümkündür.

## Rəqəmsal yaddaşa köçən sənət

### Azərbaycan Televiziyasının "qızıl fondu"nun ömrü uzanacaq



Azərbaycan Televiziya və Radiosunun arxivi tarix və mədəniyyətimizin bir əsrə yaxın dövrünü əhatə edən salnamənin qorunduğu zəngin xəzinədir. Bu arxivin müasir texnoloji yeniliklərin tətbiqi ilə qorunub saxlanılması dövlətimizin diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 30 may 2022-ci il tarixində imzalanan "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin audiovizual arxiv materiallarının rəqəmsallaşdırılması və vahid bazasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam da bu diqqətin təzahürüdür...

Bu günlərdə yolumuzu AzTV-dən saldıq. İlk dəfə doğma televiziyanın arxiv fondlarına daxil olmağın həyəcanını yaşayırıq. Məqsədimiz burada həyata keçirilən rəqəmsallaşdırma prosesi ilə yerində tanış olmaqdır.

Aparılan rəqəmsallaşdırma ilə əlaqədar bu ilin may ayında AzTV TRT ilə TİKA arasında arxiv materiallarından səmərəli istifadəyə dair əməkdaşlıq memorandumu imzalanıb. Sənədə əsasən, müvafiq sahə üzrə təlim məqsədilə TRT-dən beş nəfərdən ibarət heyət AzTV-yə gəlib. TRT-nin peşəkar arxivçiləri 67 il ərzində toplanmış materialların rəqəmsallaşdırılması prosesinin peşəkar şəkildə həyata keçirilməsinə dəstək olub, bu sahədə bilik və təcrübələrini bölüşüblər.

İlk olaraq AzTV-nin "Qızıl fondu rəqəmsallaşdırma mərkəzi"nə gəlirik. Mərkəz TİKA-nın (Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi) dəstəyi ilə qurulub. Birinci dərəcəli mütəxəssis, növbə rəisi Elvin Mirzəyev proses barədə məlumat verdi. Bildirdi ki, lentlər avadanlığa daxil edilməzdən əvvəl xüsusi qurğu ilə təmizlənir: "Daha sonra rəqəmsallaşdırma otağına daxil olur. Lenti açıb onun çəkilişin başlanğıc, yaxud son hissəsi olduğunu aşkarlayırıq. Bundan sonra lenti xüsusi cihaza mərhələli şəkildə daxil edirik. İlk olaraq lent barabana keçirilib bərkidilir. Tənzimləyici, səslə bağlı hissələrdən keçərək son olaraq yenidən bərkidilir. Əsas mərhələlərdən biri də optik səsi oxuyan hissədir. Lentlər 16 və 35 mm olduğu üçün linzalar da onların ölçüsünə görə dəyişir. Rəqəmsallaşdırma prosesi ilk olaraq rəngdən başlayır. Kadrlar rənglənir, yaxud rənglər daha da dolğunlaşdırılır. Hazırda baxdığımız optik və maqnit səslə olmaqla iki qrupa bölünür. Bunun fərqi ondadır ki, maqnit səsi yazmaq üçün tamam başqa avadanlıqdan istifadə edilir. Hazırkı rəqəmsallaşdırma avadanlığında isə 16 və 35 mm lentlərin optik səsləri yenilənir. 8 dəqiqəlik lentdə 70 kadr olur və hər kadr bir-bir rənglənir. Lent bir həftəyə işlənib hazır olur".

Biz rəqəmsallaşdırmadan sonra kadrların yenidən həyat qazanmasının şahidi oluruq. Şəffaf və parlaq rənglər bu kadrlara sanki ikinci həyat verir. Bu işdə mütəxəssislərin rolu danılmazdır. Hər bir ağac, su, göl, hətta insan üzünün rənginin uyğunlaşdırılması bu avadanlığın köməyi ilə reallaşdırılır. Kadrların rənglənməsi otağın qaranlıq vəziyyətində həyata keçirilir.

Həmsöhbətimiz deyir ki, 60 mindən çox materialın qorunduğu bu bazanı rəqəmsallaşdırmaq uzun prosesdir. Eyni zamanda böyük səbir, diqqət və səliqə tələb edir. 10 dəqiqəlik bir lentin rəqəmsallaşdırılması iki gündən 2 ayadək davam edə bilər. Mərkəz artıq iki filmi təhvil verib. Bunlardan biri yarım əsrdən çox yaşı olan "İlan zəhəri" qısametrajlı sənədli filmidir. Birinci dərəcəli böyük mühəndis Vəfa Qasımova deyir ki, rəqəmsallaşdırma AzTV-nin "Qızıl fond"unda saxlanılan minlərlə səs və görüntünü keyfiyyətli şəkildə bərpa etmək, istifadəyə yararlı hala gətirmək və gələcək nəsillərə ötürmək baxımından çox önəmlidir.





Filmoteka şöbəsinə keçirik. Şöbənin əməkdaşı, 42 ildən artıqdır burada çalışan Sahib Tağızadə maraqlı məlumatı bizimlə bölüşür. Deyir ki, kinolentin tərkibində gümüş olduğu üçün onu heç kim istifadəyə yararsız yazıb siyahıdan silə bilməz. "Sovet dövründə bizi məcbur edirdilər ki, ildə 2-3 ton kinolenti Ukraynaya yandırılmağa göndərək. Bu da o dövrdə Kimya Sənayesi Nazirliyinin əmri ilə ola bilərdi. Arxivimizdən yandırılmaq üçün göndərilən lentlər əsasən bizə aid olmayan materiallar olub. O vaxt çalışmışıq özümüzə aid olan bütün lentləri qoruyaq. Onun tərkibindəki gümüşün pulunu hesablayıb filmotekalarda çalışanlara yazırdılar", – deyə müsahibimiz bildirir.

O danışdıqca artıq boğazımızın tutulduğunu hiss edirik. Otaqda temperatur da çox aşağıdır. Burada 10 dəqiqədən artıq dayanmaq olmur.

Sahib müəllim deyir ki, Hollivud mütəxəssislərinin fikrinə görə, kinolentlərin 700 ilə qədər yaşamaq şansı var: "Biz bunları günün tələbinə uyğun olaraq rəqəmsallaşdırsaq da, fondumuz olduğu kimi qorunur. Filmotekada 1930-cu illərdən bu yana lentlər var. Hər bir qutuda 10 dəqiqəlik lent var. Burada saxlanılan lentlər qutularla ölçülsə, 40-60 min civarındadır. Bir qutuda 35 mm materialda təxminən 6-10 dəqiqə arasında material var. Heç bir təsvir daşıyıcısı kinolentin yerini ala bilməz. Olduğumuz zalda eni 16 mm olan lentlər qorunurdu". Bir qutunu götürüb, çətinliklə də olsa, açırıq. İlk olaraq qutuda materialların sənədlərinə rast gəlirik. Sənəddə verilişin adı, onu çəkən rejissor və operatorun adları, çəkiliş üçün razılıq sənədi və xronometraj qeyd edilib. Burada səs və təsvir ayrı yerləşdirilib. Olduğumuz otaqda 1960-1994-cü illərdə yazılmış "Xəbərlər" buraxılışı və verilişlərin lentləri saxlanılır.

Kadrlar Zəngilana məxsus çınar ağaclarının lentə alındığı süjetdir. Film Zəngilanın təbiətindən bəhs edir. Rəng və fokus düzəldikdən sonra digər proseslərə keçid başlanır. 16-lıq lentlər

İndi isə Video-kinomateriallar şöbəsindəyik. Redaktor Gülüş Ağaquluyeva bildirir ki, rəqəmsallaşdırma çəkilişlərin də rahat reallaşmasına səbəb olacaq: "Bizim üçün hər bir fond dəyərlidir. Çünki burada tariximizi, mədəniyyətimizi əks etdirən qiymətli materiallar, o cümlədən sənədli, bədii və cizgi filmləri, televiziya tamaşaları və s. qorunur...".

Sonda onu da öyrənirik ki, rəqəmsallaşdırma üçün zəruri texniki avadanlıqlar TİKA və TRT-nin köməkliyi ilə əldə edilərək AzTV-yə hədiyyə olunub.

**Lalə Azəri**

## Muğam konsertlərinin lent yazıları radio efirində

Beynəlxalq Muğam Mərkəzində (BMM) keçirilmiş və lentə alınmış muğam konsertləri avqust ayında İctimai radioda yayımlanacaq.

Yayım BMM ilə İctimai radionun birgə layihəsi əsasında, "Beynəlxalq Azərbaycan muğamı günü" (26 avqust) münasibətilə həyata keçiriləcək.

Milli muğam sənətinin təbliğinə töhfə vermək məqsədi daşıyan layihə eyni zamanda müxtəlif yaşdan xanəndələrin daha geniş auditoriyaya tanıdılmasına xidmət edəcək.

Konsertlərin lent yazıları bir ay ərzində hər həftənin şənbə və bazar günləri günorta saat 14:00-da dinləyicilərin zövqünü oxşayacaq. Yayın qızmar günlərində musiqisevərlərin qəlbi muğamlarımızla sərinləyəcək.

## "Yevgeni Onegin" monotamaşası Bakıda nümayiş olunacaq

Rusiyanın Əməkdar artisti Aleksandr Dyujev oktyabrın 21-də Bakı Musiqi Akademiyasının (BMA) nəzdindəki Opera studiyasında Aleksandr Puşkinin "Yevgeni Onegin" poeması əsasında monotamaşa ilə çıxış edəcək.

BMA-dan bildirilib ki, tamaşaçılar dünya ədəbiyyatının şah əsərlərindən birini yeni tərzdə dəyərləndirmək imkanı əldə edəcəklər.

Səhnə əsərində görkəmli bəstəkar Sergey Prokofyevin bu tamaşa üçün xüsusi olaraq yazılmış musiqisi səsləndiriləcək. Tamaşanın quruluşçu rejissoru Rusiyanın Xalq artisti Antonina Kuznetsovadır.

## Milli Xalça Muzeyi yenilənmiş ekspozisiyası ilə ziyarətçiləri gözləyir

Avqustun 1-dən etibarən Azərbaycan Milli Xalça Muzeyi öz qapılarını yenilənmiş ekspozisiyası ilə ziyarətçilərinin üzünə yenidən açıb.

Muzeydən bildirilib ki, ziyarətçilər indiyədək burada görmədikləri rəngarəng xalçalarla tanış ola, qədim xalq sənətindən zövq ala biləcəklər.

Xatırladaq ki, Milli Xalça Muzeyi iyulun 21-dən 31-dək profilaktik tədbirlərlə əlaqədar fəaliyyətini dayandırmışdı.



"Heydər Əliyev İli"

## Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

### İllərin xronikasından (52)

**1995-ci il 5 fevral**

Prezident Heydər Əliyev görkəmli bəstəkar, Xalq artisti Arif Məlikovun Azərbaycan Dövlət İncəsənət Muzeyində keçirilən müəllif gecəsində çıxış edib.

*"...Yüksək professional səviyyəli musiqi əsəri, sənət əsəri yazmaq, ortaya çıxarmaq, şübhəsiz ki, böyük istedad tələb edir. Arif Məlikov belə bir fitri istedada malik insandır. Bu fitri istedadı ilə yanaşı, öz sənətini sevməsi, sənətinə sadiq olması və fədakarcasına çalışması ona belə böyük əsərlər yaratmağa imkan verir.*

*Əlamətdar bir hadisədir ki, bugünkü müəllif gecəsi böyük bəstəkarımız, Azərbaycan xalqının fəxri, ölməz Qara Qarayevin anadan olduğu gündə keçirilir. Mənə elə gəlir, bəlkə bu axşam Qara Qarayevin anadan olması gününə həsr olunub... Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, başqaları və bu məktəbin yetişdirməsi olan görkəmli sənətkar Arif Məlikov.*

*Arifin yazdığı "Məhəbbət əfsanəsi" baleti bütün dünyanın professional opera və balet teatrlarında nümayiş etdirilir... Gərək ki, 1986-cı il idi. Böyük Teatrın yeni mövsümünün açılışı münasibətilə Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti Yuri Qriqoroviçin quruluşunda tamaşaya qoyulmuşdu... Sovet İttifaqının rəhbərlərindən bir qrupu, o cümlədən də mən Böyük Teatrın lojasında əyləşmişdik. Təsəvvür edin, mən nə qədər sevinirdim ki, Moskvada, zəngin tarixə malik olan Böyük Teatrın səhnəsində mövsümün açılışında Arif Məlikovun "Məhəbbət əfsanəsi" əsəri göstərilir. Mən orada həm sevinirdim, həm də həzz alırdım, həm də fəxr edirdim. Oturmuşduq yan-yana – dövlət rəhbərləri dəfələrlə mənə tərəf dönürdülər və məni təbrik edirdilər. Mən də sevincimi onlara bildirirdim. Nəhayət, tamaşa başa çatandan sonra Arif Məlikovu Yuri Qriqoroviçlə bərabər səhnəyə dəvət etdilər. Biz onları alqışladıq və mən onu təbrik etdim. Belə xatirələr çoxdur...*

*Mən incəsənət xadimlərinə, musiqiçilərə həmişə böyük diqqət yetirmişəm. Xatirimdədir, mən onlarla vaxtaşırı görüşüb danışarkən bir-biri ilə münasibətlərinin gərgin olduğunu hiss edirdim və bunları aradan götürməyə çalışırdım... İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var. Mənim kimi siyasət adamı, respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin...*

*1973-cü ildə mən belə qərara gəldim ki, onları bazar günü Zuğulbada dəniz kənarındakı dövlət bağına dəvət edim, bir gün onlarla birlikdə olum. Rəhmətlik Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Cahangir Cahangirov, Soltan Hacıbəyov xanımları ilə gəlmişdilər. Tofiq Quliyev, Arif Məlikov və başqaları da orada idilər. Biz bütün günü söhbət etdik, musiqidən danışdıq. Xatirimdədir, Tofiq Quliyevlə Niyazi pianoda çox gözəl çaldılar. Biz xeyli söhbət etdik. Hesab edirəm ki, bu, çox böyük bir görüş oldu. Bundan sonra münasibətlər xeyli düzəldi. Yaxşı əsərlər də meydana gəldi. Fikrət Əmirovun "Min bir gecə" baleti çox gözəl əsərdir və elə o dövrün bəhrəsidir...*

*...Həyatın bu çətin, ağır dövründə musiqi bəstələmək və xüsusən simfonik əsərlər, professional, mürəkkəb əsər yaratmaq çox çətin məsələdir. Arif bunun öhdəsindən gəlir. Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik. Bizim bugünkü görüşümüz, bu müəllif gecəsi şübhəsiz ki, ona daha çox ilham verəcək və o, yeni əsərlər yaradacaqdır...".*

**1995-ci il 20 fevral**

Heydər Əliyev Səttar Bəhlulzadə adına sərgi salonunda "Qədin Azərbaycan təsviri sənətində" mövzusuna həsr olunmuş sərginin açılış mərasimində iştirak edib.

**1995-ci il 26 fevral**

Heydər Əliyev Xocalı soyqırımının üçüncü ildönümü münasibətilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən xatirə məclisində çıxış edib.

**1995-ci il 2 mart**

Heydər Əliyev yazıçı Gəray Fəzlini 70 illik yubileyi münasibətilə təbrik edib.

**1995-ci il 3 mart**

Heydər Əliyev "Gülüstan" sarayında Ramazan bayramı münasibətilə keçirilən tədbirdə çıxış edib.

*"...Şübhəsiz, ən böyük arzumuz torpaqlarımızın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır... Bunun üçün şübhəsiz ki, biz çox iş görməliyik, xalqımızın mənəvi birliyini təmin etməliyik. Gücümüzün hamısını bir yerə toplamalıyıq. Biz vətəndaş həmrəyliyini, xalqın bütün təbəqələrinin həmrəyliyini bir məqsəd üçün – Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün təmin etməliyik".*

**1995-ci il 8 mart**

Heydər Əliyev 10 mart – Milli Teatr Günü münasibətilə Azərbaycanın teatr xadimlərinə təbrik müraciəti ünvanlayıb.

*"Azərbaycanın teatr xadimləri bütün mütərəqqi fikirli ziyalılarla birlikdə milli azadlıq hərəkatımızın ön cərgəsində getmiş, xalqın ağır günlərində ona mənəvi dayaq olmuşlar, bu gün də qədim mədəniyyətimizin dünyaya tanıdılmasında böyük işlər görürlər",* – deyə müraciətdə bildirilir.

**Hazırladı: Vüqar Orxan**

*(davamı var)*

# Rusiyada yaşayan azərbaycanlı aktyor və rejissor Məmməd Məmmədov vəfat edib

Rusiyada yaşayan tanınmış azərbaycanlı aktyor və rejissor, bu ölkənin Əməkdar incəsənət xadimi Məmməd Haşım oğlu Məmmədov iyulun 24-də, 72 yaşında vəfat edib.



Məmməd Məmmədov Azərbaycanın Xalq artisti, Dövlət mükafatı laureatı Şəfiqə Məmmədovanın qardaşıdır. O, ötən əsrin 80-ci illərində "Azərbaycanfilm" kinostudiyasında çəkildiyi filmlərlə geniş tamaşaçı auditoriyasına tanınıb. Rusiya teatrlarında isə aktyor, daha sonra rejissor kimi fəaliyyət göstərib.

Azərbaycan Mədəniyyət Nazirliyi Məmməd Məmmədovun vəfatı ilə əlaqədar nekroloq yayıb. Nekroloqda qeyd olunur ki, Məmməd Məmmədov "Anın quruluşu", "Bağlı qapı", "Üzeyir ömrü", "Gümüşü furqon", "Asif, Vasif, Ağasif", "Burulğan", "Təxribat" kimi filmlərdə əsas rolların ifaçısı olub.

Mədəniyyət Nazirliyi Xalq artisti Şəfiqə Məmmədova başda olmaqla mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Allah rəhmət eləsin.

***

Qeyd edək ki, Məmməd Məmmədovun "Azərbaycanfilm" kinostudiyasında çəkildiyi ilk ekran əsəri "Vulkana doğru" (1977, rejissor Tofiq İsmayılov) üçseriyalı bədii filmi olub. Onun kinoda yaratdığı yaddaqalan obrazlardan biri də "Üzeyir ömrü" filmində (1981, ssenari müəllifi və rejissor Anar) Müslüm Maqomayev obrazıdır.

Rusiya internet mənbələrində aktyor və rejissor Məmməd Məmmədov Mixail Məmmədov kimi qeyd edilib.

Məmməd Haşım oğlu Məmmədov 19 oktyabr 1951-ci ildə Dağıstanın Dərbənd şəhərində anadan olub. 1975-ci ildə Voronej Dövlət İncəsənət İnstitutunu, 1981-ci ildə Moskvada Rusiya Teatr Sənəti İnstitutunun Rejissorluq fakültəsini, 1985-ci ildə isə SSRİ Mədəniyyət Nazirliyi nəzdində Ali Rejissorluq Kurslarını bitirib.

Voronej Dram Teatrında (1975-1978), daha sonra Kuybışev (indiki Samara) və Minsk teatrlarında aktyor kimi fəaliyyət göstərib. Rejissor kimi Moskvadakı V.Mayakovski Teatrında (1986-1988), daha sonra Komediya Teatrında ("Ay Teatrı") çalışıb. Həmçinin Dauqavpils (Latviya) teatrı ilə əməkdaşlıq edib, Rusiyanın bir sıra teatrlarında, eləcə də Belarusda, Bolqarıstanda, Türkiyədə, Macarıstanda tamaşalar qoyub. 90-cı illərdə "Rusiya Rejissorlar Cəmiyyəti" adlı yaradıcılıq birliyində sədr müavini olub. Televiziyalarda seriallar da çəkib. Rusiya tamaşaçıları onu daha çox "Sındırılmış fənərlər küçələri" serialının rejissorlarından biri (8-ci mövsüm) kimi tanıyıblar.

Rejissor yaradıcılığının son 20 ilini Tambov Dövlət Dram Teatrında keçirib, bu səhnədə onlarla tamaşaya quruluş verib.

Rusiya mediasının məlumatına görə, Məmməd Məmmədov iyulun 24-də Tambov şəhərində müayinə üçün gəldiyi poliklinikada ürəktutmadan vəfat edib.

"O təkcə gözəl tamaşalar yaratmırdı, həm də aktyorlara ilham verməyi, hər ifaçının istedadını üzə çıxarmağı bacarırdı. Biz bu qəribə ustadı hər zaman xatırlayacağıq", – deyə Tambov teatrının yaydığı nekroloqda vurğulanır.

# İkinci rejissorla bir dublluq söhbət

## "Çəkiliş zamanı hər məsələdə yaxasından yapışılan biz oluruq. Yağış səbəbindən təxirə düşən çəkilişin günahı da ikinci rejissordadır..."

Bəzən maraqlı bənzətmə edirik: filankəs həyatı film kimi adamdır. Amma mənim qəhrəmanım başdan-ayağa özü filmdir. Ömrünün təxminən yarım əsri kinoda, kino ilə iç-içə keçib. Onlarla filmin ikinci rejissoru olub. Zəngin filmoqrafiyası ilə ikinci rejissorlar arasında birincidir.

Beləliklə, həmsöhbətim indi ömrünün kinosuz keçən illərini kədərlə yola verib, kinomuzun parlaq keçmişi kimi gələcəyinə də inanan Əməkdar mədəniyyət işçisi, rejissor Akif Rüstəmovdur.

*– Akif müəllim, kino adamları sizi niyə bu qədər çox istəyirlər?*

– Doğrudan? Bunu yenidən eşitmək əntiqədir. Çox sağ olsunlar. Amma kinostudiyada hamı bir-birini çox istəyir. Çünki hamısı ömrünü kinoya həsr etmiş insanlardılar. Mən də hamısını çox istəyirəm.

*– Amma yaradıcı mühit heç də həmişə siz deyən kimi olmur. Rəqabət, bəzən də intriqa...*

– Təbii, bu da olur. Amma bəzi adamların içərisində qaranlıq olur və kino projektoru belə ona işıq sala bilmir. Ötən vaxtları görən adam kimi deyim ki, onda kinostudiyadakı qaynar həyatda dostluq, səmimiyyət daha çox idi. Belə olduqda rəqabət də sağlam idi.

*– Bəs indi?*

– İndi kino var ki? (gülür). Təəssüf ki, kinomuz ovaxtkı mərhələsinə qayıda bilmir. Sağ olsun dövlətimiz, kinoya qayğı, diqqət göstərir, onun inkişafına çalışır. Yaxşı orta və gənc kino nəsli də var. Yəni bütünlükdə kino, istehsalat üçün imkanlar var. Sadəcə, nə isə çatmır. Amma həmişə inanmışam, indi də inanıram ki, kino olacaq. Çünki kinosuz mədəniyyət ola bilməz.

*– Sovet ideologiyasının hakim olduğu illərdə çalışmısınız. Bu sahə ideoloji maşının bir parçası olub...*

– Əslində, bunun yaxşı tərəfləri daha çox idi, nəinki pis. Çünki kino vacib kütləvi təbliğat vasitəsidir və ondan səmərəli istifadə olunmalıdır. Sadəcə, o vaxt məsuliyyət daha çox idi. Sözsüz ki, nəzarət də. Çünki kinonun pulunu dövlət verirdi və proses müxtəlif mərhələlər və qurumlar səviyyəsində yoxlanılırdı. Yaradıcılıq üçün də imkanlar, mühit vardı və istəyən rejissor öz düşüncəsini senzor maşının diktəsindən də keçirib müəyyən mənada reallaşdıra bilirdi. Amma hər bir film, nə qədər zəif olsa da, pulunu artıqlaması ilə çıxarırdı.

*– Zəif film də?*

– Bəs necə? Çünki prokat işləyirdi. Onu da deyim ki, zəif film çəkmək şansımız da yox idi. Burada böyük şəxsiyyətlərin təmsil olunduğu bədii şura vardı. Şuradan sonra da Moskvada filmlərə baxırdılar. Belə olduqda hər bir rejissor, ssenarist, adi montajçı da var gücünü sərf edib ən yaxşısına can atırdı.

*– Çalışdığınız rejissorlar arasında öz düşüncəsini həyata keçirən, belə deyək, ən cəsarətliləri kimlər idi?*

– Həsən Seyidbəyli, Arif Babayev, Tofiq Tağızadə, Şamil Mahmudbəyov. Əlbəttə, hər rejissor istəyirdi ki, filmlərində millilik, dəyərlər də olsun və bunu ən mümkün formalarda realizə etməyə çalışırdılar.

*– Amma açıq düşüncəni də yuxarılar hər zaman qəbul etmirdi...*

– Bəli. Amma tam inkar edirdi də deyə bilmərəm. Məhz bu kimi məqamlar rejissordan çoxqatlı planda düşüncə tələb edir. Məsələn, "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Dədə Qorqud", "Babək" kimi filmlər kifayət qədər milli düşüncəsi, birbaşa və dolayı eyhamları ilə görün necə böyük uğur qazandı. Bir məqam var: sənin təqdim etdiyin iş yüksək səviyyəli olmalıdır. Yaxşı rejissor da məhz buna nail olandı.



*– Hər iki dövrdə işləyən adam kimi fikriniz maraqlıdır: mühit, kinonun istehsalat prosesi onda daha demokratik və işlək idi, yoxsa indi?*

– Hesab edirəm ki, onda. Düzdür, nəzarət güclüydü. Amma yaradıcılıq üfüqləri də geniş idi. Kino istehsalatında janr, mövzu və ideya zənginliyi vardı. İstəyən istədiyi mövzuya müraciət edə bilirdi. Düzdür, senzuranı, qayçını da unutmaq olmaz. Amma yenə də yaradıcılıq vardı. Rejissorlar da filmlərini müdafiə edərək, nəyi niyə etdiklərini əsaslandırmağa çalışırdılar.

*– Bu mənada ən mübarizlər kimlər idi?*

– Daha çox Həsən Seyidbəyli, Şamil Mahmudbəyov. Onlarla hesablaşırdılar da. Təcrübələri, təhsilləri, istedadları və bütün bunların verdiyi ötkəmlikləri vardı. Onları yuxarılarda da yaxşı tanıyırdılar. Hə, bir də rəhmətlik Tofiq Tağızadə. O, lap emosional idi. Az qala söz deməmiş özündən çıxardı. Amma ümumi dialoqa gəlinirdi. Məsələn, film pisdir, bağlayın deyən olmurdu. Cəza mexanizmi rejissoru dəyişmək olurdu. Yəni istehsalat dayanmırdı.



*– Bayaqdan baxıram, hər xatirə sizi başqa bir aləmə aparır. Bir anlıq dünənə qayıtsaq...*

– Zarafat deyil, ümumilikdə 56 filmdə işləmişəm, o cümlədən 29-u tammetrajlı bədii film. Kinostudiyaya gələndə cavan oğlan idim, indi isə... 1967-ci ildə gəlmişəm. Birinci filmim "Uşaqlığın son gecəsi" olub. 21 yaşım vardı. Hər şey mənə möcüzəli gəlirdi. Az vaxtda Arif Babayevlə dostlaşdım, sonra "Gün keçdi"ni işlədik. Ardınca Arifin məsləhəti ilə Tofiq Tağızadənin "Qızıl qaz" filmində ikinci rejissor oldum. Kinostudiyada hamı bir-birini yaxşı tanıyırdı axı. Onda məndən də təcrübəli rejissorlar vardı. O isə həmin filminə ikinci rejissor kimi məni seçdi. Beləcə, Tofiq müəllimlə bir neçə filmdə işlədik, əla dostluğumuz yarandı. Yaş fərqimizə baxmayaraq, səmimi münasibətimiz oldu. İndi oturub o zamana baxanda çox xoşbəxt oluram. Görün kimlərlə işləmişəm...

*– Nüfuzlu kinorejissorlarla işləmək həm də dözüm istəyir, deyilmi?*

– Yadımdadır, ilk tarixi film kimi "Nəsimi"ylə bağlı narahatlığım oldu. Rus məktəbində oxumuşdum, təcrübəm də az idi. Çıxılmaz vəziyyətə düşmüşdüm. Öz-özümə "mən bu nəhənglikdə işin öhdəsindən necə gələcəm" sualını verirdim. Çünki işin böyük hissəsi ikinci rejissorun üzərinə düşürdü. Düzü, qorxdum və işdən imtina elədim. Xəbər kinostudiyanın direktoru Adil İsgəndərova çatdı. Çox keçmədən çağırtdırdı. Getdim. Dedi: "Qadam, eşitdim filmdən imtina edirsən". Mən də həqiqəti dedim. Məsuliyyəti və yükün ağırlığını izah etdim. Maraqlı bir baxışı vardı. Gözlərini qıyıb, məni təpədən dırnağa süzəndən sonra "Neynək, get Xalidənin yanına (katibəsi idi), ondan bir parça kağız al, ərizəni yaz. Daha sən mənə lazım deyilsən" dedi. Siz təsəvvür edin də halımı? Elə bildim ayağımın altından yer qaçdı. Güclə bu işə girib, az-çox özümü tanıdıram. Üstəlik də özümdən də böyük kino arzularım var. Qaldım məəttəl. İndi etiraz eləməyimin də yeri yoxdur. Adil müəllimdir e qarşımdakı. Rəhmətlik nə qədər zarafatcıl olsa da, çox kəskin adam idi. Necə deyərlər, əli ətəyindən uzun kinostudiyanın dəhlizləri ilə gəzişirəm. Bu vaxt rəhmətlik Arif Babayevi gördüm. Dublyajda idi. Vəziyyəti ona danışdım. Sözsüz ki, məsləhətlərini verdi, ürəkləndirdi, get işlə dedi. Özümü topladım. Bilirdim ki, Həsən Seyidbəyli qızışdırıb Adil müəllimi. Az-çox qulağıma çatmışdı. Verdim özümü Həsən müəllimin yanına. Filminin ikinci rejissoru olmağa razılaşdığımı dedim. Həsən müəllim də cəld gedib "Adil, cavandır, səhvin anladı, işləyəcək" dedi və mən beləcə, o filmdə də, kinoda da qaldım. Allah hər ikisinə rəhmət eləsin. Onların bu qətiyyəti olmasaydı, mən bu tarixi filmlər silsiləsinə qoşula bilməzdim.

*– Sadəlövh bir sual: ikinci rejissorun vəzifəsi nədir?*

– Rejissor ssenarisindən sonadək bütün işdə ikinci rejissor prosesin içindədir. Belə deyim də, hər məsələdə yaxasından yapışılan adam ikinci rejissordur (gülür). Adətən deyirdilər ki, yağış yağanda da təxirə düşən çəkilişin günahı ikinci rejissordadır. Sözsüz ki, yarızarafat olsa da. SSRİ-də ikinci rejissora "qərargah rəisi" deyirdilər. Bütün işlərin məsuliyyətini daşıyan, cavabdeh bizik. Düzdür, heyətdə kömək edənlər çox olur, amma əsas yük ikinci rejissorundur. Şikayət eləmirdik, maaşı yaxşı idi axı. Məsələn, quruluşçu rejissorun maaşı 300 manat idi. Onu da hər rejissor almırdı ha. Rejissorun kateqoriyasına görə dəyişirdi. Üç filmimdən sonra mənim də kateqoriyam qalxdı və maaşım oldu 300 manat. Əmək kitabçam da belə yazılıb: yüksək kateqoriyalı kinorejissor. Çətin və kateqoriyalı filmlərdə işləmişəm deyə əməkhaqqım da çox idi, hətta filmin direktorundan da yüksək. Bundan başqa, qonorar da vardı. Onlar bilirdilər ki, kimin çiynində hansı yük var, kim nə edir.

*– Bu mənada, ən çətin çəkiliş prosesi hansı filmdə olub?*

– "Babək" filmində. Çünki orada kütləvi səhnələr çox idi, şərait də yox. Çəkiliş olan ərazidə bir ağaca da rast gəlməzdin. Söhbət məndən getmir. Orada təxminən 5 min insan vardı. Təsadüfi deyil ki, o film ən çox kütləvi səhnənin olduğu ekran əsəridir. Onun üçün Moskvadan xüsusi atlılar alayı gəlmişdi. Əsasən də məkan çəkilişləri, isti, şəraitsizlik və insan amili. Amma çətin də olsa öhdəsindən gəldik. Qoyun bir az özümüzü tərifləyim də. Moskvada elə filmlər üçün 7-8 assistent, 2-3 rejissor ayrılırdı. Bizdə isə bu say uzağı 2-3 assistentlə bitirdi. Amma yük bərabər idi. "Nəsimi" də ağır iş istəyən film idi. Sıralasaq, üçüncüsü "Dədə Qorqud" olar. Ən çox maliyyə sərf olunan da "Babək"i saysaq, o, kinostudiyanın ən miqyaslı işi sayılmalıdır.

*– Quruluşçu rejissor ilə ikinci rejissor arasındakı yaradıcı münasibətdən danışaq. Yəqin burada dialoqsuz mümkün olmaz. Bir də bütün zərbələri ikinci rejissor alır, deyirsiniz...*

– Bəli, zərbəni alır. Amma ikinci rejissor da insandır və mütləq bir gün özündən çıxa bilər. Məndə bu hal "Nəsimi"də yaşandı. Rəhmətlik Həsən Seyidbəyli yaxşı insan idi, sadəcə, arada olur da. Mənə oğlum deyə xitab edirdi. İşləməkdən yorulmazdı. Mənə görə, aktyorlarla ən yaxşı işləyən də məhz o idi. Amma çəkilişlərdən birinin təxirə düşməsi, daha doğrusu, onun bir təlimatının mənə, mənim də dəyişən çəkiliş planı ilə bağlı xəbərimin ona çatmamağı, yəni rabitəsizlik səbəbindən aləm dəydi bir-birinə. Cavanam da, mən də ani səbirsizliklə şələ-şüləmi yığıb qayıtdım Bakıya. Bütün məsələ də bundan sonra başladı. Filmin direktoru Bəşir Quliyev də qəflətən dünyasını dəyişdi. Aləm qarışdı. Mənim acıq eləyib gəlməyimlə Həsən müəllim lap özündən çıxır, qalan iki günün çəkilişini də ləğv edir və heyət kinostudiyaya qayıdır. Gəlir Adil müəllimin yanına, bütün hirsini qrupun üzərinə tökür, heyətin kateqoriyasının aşağı salınmasını istəyir. Uşaqlar zəng elədilər ki, "Akif, gəl, qırğındı". Yetirdim özümü. Kateqoriyalar aşağı düşsə, 3 ili itiririk. Sözsüz ki, üzrxahlıq etdim, barışdıq. Ruhu şad olsun, durdu və Adil müəllimə nə dedinə demədi, sonra hər şey yoluna qoyuldu. Amma ümumən çəkiliş proseslərimiz çox rahat, şən, qaynar keçərdi. Bunlar arasında ən zövq alıb, dincələrək yorulduğum "Dərviş Parisi partladır" filmi idi. İlahi, o günlər yadıma düşəndə elə bilirəm ömür gözümü açıb-yumunca keçib. Heyətə baxın, görün, necə nəhəng sənətkarlar vardı. Hayıf o günlərdən. Yəqin bilirsiniz, o film əslində Kamil Rüstəmbəyova verilmişdi. Bir-iki məkan çəkilişindən sonra bədii şura kadrlara baxdı və filmin çəkilişləri dayandırıldı. Belə olduqda operator Zaur Məhərrəmov da filmdən çıxdı. Amma istehsalatda fasilə uzun çəkmədi və iş Şamil Mahmudbəyova verildi.

*– Kinostudiyanın dəhlizlərinin qaynayan dövrünü yaşamısınız. İndi o sükut sizi üzmür ki?*

– Yaman yaralı yerimə toxundunuz. Bu məni çox ağrıdır. Tək məni yox, hamımızı. Qarşıdan "Kino günü" gəlir, istəmirdim kövrəlim. Yəqin qocalıqdandır, ürəyim bu anlar yerindən çıxır, gözlərim sözümə baxmır. Bağışlayın, icazənizlə, fasilə edək... Hə, keçmiş məni həmişə belə kövrəldir. Təsəvvür edin, il ərzində irili-xırdalı 10 film çəkilə, hər an həyat qaynaya. Sonra da gəlib bu hala düşəsən. Ürəyim ağrıyır. Amma yenə də ümidliyəm və inanıram ki, kinomuz o çağlayan dövrünə qayıdacaq. Ümidli nəsil var.

*– Kinomuzun çətin dövrünü – 90-cı illəri də görmüsünüz. Məsələn, Tofiq Tağızadənin öz hesabına çəkdiyi "O dünyadan salam"da ikinci rejissor olmusunuz...*



– Bilirsiniz ki, Tofiq müəllimin ən böyük arzusu o filmi çəkmək idi?! İllərlə o ssenarini şuradan keçirə bilmirdi. Amma inadla "çəkəcəm" deyirdi. O vaxt "Vətən" cəmiyyəti vardı. Onların toplantısına gedərək filminin taleyini həll edib, maliyyə aldı. Özü də söz verdi ki, qaytaracaq. Kinonun heç kimin yadına düşmədiyi məqamda o filmi çəkdi və cəmiyyətin də pulunu qaytardı. Amma necə qaytardı, bilmədim. Ən əsası o öz arzusunu reallaşırdı, hətta filmi bacısına vəsiyyət etdi. Tofiq müəllimin son filmi "Köpək" idi. Amma təəssüf ki, həmin vaxt mən Eldar Quliyevlə işləyirdim deyə gələ bilmədim. Ruhları şad olsun, hamısı gözəl insanlar idi. Hamısından sevgi, mehribanlıq gördüm. Amma ən əliaçığı Tofiq müəllim idi. Heç vaxt "yox" deməzdi. Yazıq Tofiq müəllim film ilə yaşayırdı. Xəstəxanada yatanda mənə "1905-ci ildə" filminin ssenarisini göstərdi, "Sağalan kimi bu filmi çəkəcəm, mənimlə işləyərsən?" dedi. Sözsüz ki, "hə" cavabını verdim. Amma bilirdik ki, çox az vaxtı qalıb, iki günə dünyasını dəyişdi.

*– Epizodik də olsa, hansısa filmdə çəkilmisiniz?*

– Bəli, iki filmdə. "Uşaqlığın son gecəsi"ndə maşını ilə kadra düşən iri gün eynəkli oğlan mənəm. O da təsadüfən oldu. Həmin vaxtlar maşınlı adamlar az idi. Bir tanış oğlan vardı, vədələşdiyimiz vaxt çəkiliş meydanına gəlmədi. Artıq gün batırdı. Bax, o kadra məni çəkdilər. Bir də rəhmətlik Rasim Ocaqovun "Güllər" bədii-sənədli filmində qucağında gül dəstəsi ilə keçən mənəm. Bax belə, iki kadrda mən də varam. Amma "Ad günü" filmində baş rol üçün Hacı İsmayılovla birgə sınaq çəkilişində də olmuşam. Rasim Ocaqov "o rolda səni görürəm" desə də, alınmadı, bir növ istəmədim.

*– Ürəyinizdən quruluşçu rejissor olmaq istəyi keçibmi?*

– Əlbəttə, keçib. Amma o vaxt bu elə də asan deyildi. Kinoda təcrübə yığmaq, sonra öz filmimi çəkmək istəyirdim. Amma Moskvaya təhsilin arxasınca getmədim. Heç imkanım da olmadı. Sonradan da nə film verildi, nə də mən istədim. Vallah, heç təəssüflənmirəm də. Gör, nə qədər filmdə işləmişəm, necə sənətkarlar görmüşəm.

*– İşlədiyiniz filmlərə indi baxanda ən çox nələrə diqqət edirsiniz?*

– Daha çox titrlərə baxıram, öz adımı görən kimi də bambaşqa oluram. Elə bil cavanlaşıram, ruhum qanad açır, bir anda gedirəm çəkiliş prosesinə, o illərə.

*– Övladlarınızdan kinoya maraq göstərən oldu?*

– Kino başımı qatdı, gec evləndim. Bir qızım, iki nəvəm var. Yox, kinoya həvəsləri elə tamaşaçı kimidir.

*– İndiki kinoda arzunuz nədir?*

– Futbolu çox sevirəm və təəssüf ki, kinematoqrafiyamız o mövzuda film çəkməyib. Futbol mövzusunda bədii film çəkmək. Arzudur da, edirəm, kimə nə ziyanı?

*– Kino işçilərinə sözünüz...*

– Talantlı, maraqlı və düşüncəli nəsil var. Sadəcə şərait yaratmaq, dəstək olmaq lazımdır. İnanıram ki, kinoya vurğun adamlar bizi kinosuz qoymazlar. Kino gününüz mübarək, dostlar.

**Söhbətləşdi:
Həmidə Nizamiqızı**

# Muzeydə görüş

Bu günlərdə Fransanın Azərbaycandakı Səfirliyindən Üzeyir Hacıbəylinin Ev-Muzeyinə telefon zəngi oldu. Səfirliyin nümayəndələri muzeyi ziyarət etmək istədiklərini bildirdilər. Doğrusu, bu təklif muzeyimizin kollektivinin də ürəyincə oldu. Çünki muzeydə Fransa ilə bağlı bir çox maraqlı eksponatlar, fotolar, sənədlər, rəsm əsərləri və s. vardır.

Məlumdur ki, 1919-cu ildə Üzeyir Hacıbəylinin kiçik qardaşı Ceyhun Hacıbəyli Azərbaycanın Xalq Cümhuriyyəti nümayəndə heyətinin tərkibində Versal Sülh Konfransında iştirak etmək üçün Paris şəhərinə getmiş və Cümhuriyyətin süqutundan sonra Vətənə qayıda bilməmişdir. Hazırda Ceyhun bəyin məzarı Paris yaxınlığındakı San-Klu şəhərindədir. İllər boyu qürbətdə mühacir həyatı yaşamış Ceyhun Hacıbəyli Azərbaycanın müstəqilliyi uğrunda öz fəaliyyətini dayandırmamış, bir publisist kimi qələmini yerə qoymamışdır. Bu gün Üzeyir bəyin ev-muzeyində Ceyhun Hacıbəylinin vaxtilə Fransadan gətirilmiş kiçik bir arxivi qorunub saxlanılır. Bu arxivdə Ceyhun bəyin ailəsilə birlikdə çəkdirdiyi fotoşəkillər, Fransada dərc etdirdiyi broşürlər, sənədlər, epistolyar ədəbiyyatdan nümunələr və daha nələr-nələr vardır...

Tarixdən bildiyimiz kimi, 1944-cü ilin noyabr ayında fransalı general, ölkənin gələcək prezidenti Şarl de Qoll Bakıda olmuşdur. Böyük bəstəkarımız Üzeyir Hacıbəyli onu yaradıcılığının zirvəsi olan "Koroğlu" operasına baxmağa dəvət etmişdir. De Qoll bu dəvəti məmnuniyyətlə qəbul etmiş, Opera və Balet Teatrında Üzeyir bəylə yanaşı əyləşərək bu ölməz operaya tamaşa etmişdir. Bu mövzuda muzeyimizdə irihəcmli qiymətli bir rəsm əsəri də vardır.

Muzeydə Fransa ilə bağlı başqa bir eksponat da qorunub saxlanılır. Bu, Napoleon Bonapartın büstüdür. Yenə tarixə müraciət etsək bilərik ki, 1859-cu ildə görkəmli fransız yazıçısı Aleksandr Düma Qafqaza səfər etmişdir. O, Bakıda olarkən ictimai xadim, şairə, Xan qızı Xurşidbanu Natəvanla görüşmüş, hətta onunla şahmat oynamışdır. Bu görüşdə Düma öz ölkəsindən bir xatirə kimi sərkərdə Napoleonun nəfis şəkildə düzəldilmiş büstünü Natəvana hədiyyə etmişdir. Bu gün həmin büst Natəvandan yadigar kimi muzeyimizin qiymətli eksponatlarından biridir.

Muzeyimizdə qonaq olan Fransa səfirliyinin nümayəndələri bu rəsmlərlə, fotolarla, əşyalarla yaxından tanış olduqca, doğrusu, bir az da heyrətləndilər. Səfirliyin mədəniyyət işləri üzrə attaşesi Pier-Antuan Ferasen əşyaların tarixinə aid muzeyin direktoru Xalq artisti, bəstəkar Sərdar Fərəcova suallar verir, özündə qeydlər aparırdı. Görüş zamanı Sərdar Fərəcov royalda Üzeyir Hacıbəylinin əsərlərindən nümunələr səsləndirdi, bu əsərlərin yaranma tarixi haqqında qonaqlara məlumat verdi.



Bir sözlə, bu görüş fransalı nümayəndələrin, eləcə də muzey əməkdaşlarının xatirəsində xoş təəssüratla qalacaq.

Sonda attaşe muzeyin xatirə kitabına öz təəssüratlarını yazaraq, əməkdaşlara bu səmimi qəbul üçün təşəkkürlərini bildirdi, xatirə fotoşəkilləri çəkdirildi.

Yeri gəlmişkən, biz də Fransa səfirliyinin nümayəndələrinə, eləcə də tərcüməçi Turanə İsayevaya muzeyimizi ziyarət etdiklərinə görə təşəkkürümüzü bildiririk.

**Gülnarə Ələsgərova**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyinin şöbə müdiri**

# 119 yaşlı müasir kitabxana

## Bir kitabxananın tarixi



Kitabxanalar bütün dövrlərdə cəmiyyətin maariflənməsi, ictimai mütaliənin təşkili və təbliği, tədris, elmi-tədqiqat və digər məqsədlərlə bağlı fəaliyyət göstəriblər. Son illərdə dövrün tələbinə uyğun olaraq, ənənəvi kitabxana proseslərinə yeni texnologiyalar tətbiq edilməsinə, ənənəvi xidmətlərin bir çoxunun onlayn formatda həyata keçirilməsinə başlanılıb.

Bu baxımdan əksər ölkələrin kitabxanaları ənənəvi çap məhsullarına marağın artırılması üçün innovativ vasitələr, oxucunu kitabxanaya cəlb edəcək fəaliyyət yolları tətbiq edirlər.

Ölkəmizdə də oxucuların kitabxanalara cəlb edilməsi istiqamətində kütləvi xarakter almasa da, müəyyən addımlar atılmaqdadır.

Sabunçu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) paytaxtın Bakıxanov qəsəbəsində yerləşən, bir əsrdən çox yaşı olan 1 saylı filialı yenilikləri ilə ölkəmizin digər kitabxanalarından fərqlənir.

Kitabxananın fəaliyyəti ilə tanış olmaq üçün bu yaxınlarda yolumuzu bu məkandan saldıq. Kitabxananın müdiri Şəfiqə Həkimova müəssisə haqqında məlumat verdi. Bildirdi ki, əsası 1904-cü ildə maarifçi, tibb işçisi Lidiya Barxatova (1874-1966) tərəfindən qoyulan kitabxana Sabunçu rayonun Ramana qəsəbəsində neftçilər üçün kitabxana-qiraətxana kimi fəaliyyətə başlayıb.



1971-ci ildə Ulu öndər Heydər Əliyevin göstərişi ilə kitabxana Bakıxanov qəsəbəsinə (keçmiş Razin qəsəbəsi) köçürülüb. 1975-ci il iyunun 11-də Heydər Əliyev kitabxanada olub, müəssisənin fəaliyyəti ilə yaxından tanış olub. Kitabxana 1992-ci ilə qədər Bakı komissarlarından Yakov Zevinin adını daşıyıb. Həmin il kitabxanaya görkəmli şairimiz Məhəmmədhüseyn Şəhriyarın adı verilib.

Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin 27 yanvar 2011-ci il tarixli əmrinə əsasən, Sabunçu rayonu üzrə MKS yaradılıb. Həmin ildən Şəhriyar adına uşaq kitabxanası MKS-nin nəzdində 1 saylı filial kimi fəaliyyət göstərir.

2016-cı ildə kitabxana Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə pilot layihə əsasında əsaslı təmir olunub. 2017-ci il mart ayında kitabxananın yenidənqurmadan sonra açılışı keçirilib. "Kitab evi" tərzində yaradılan kitabxananın əsas ideyası yeni və müasir kitablardan ibarət fondun daima yenilənməsi, həmçinin əhalinin hər sahədə daha geniş məlumat əldə etməsinə səy göstərilməsidir. Oxucuya sərbəst seçim imkanı verən məkan müasir kompüterlərlə və sürətli internetlə təmin olunub.

Kitabxanada Ulu öndər Heydər Əliyevin siyasi irsinin təbliğinə xüsusi diqqət yetirilir. Burada dahi şəxsiyyətə həsr olunmuş ayrıca guşə yaradılıb. Guşədə Heydər Əliyevin kitabxanada olarkən çəkilmiş fotoları da yer alıb.

Şəfiqə xanım bildirir ki, oxucular üçün hər cür şərait yaradılan yeni konsepsiyalı kitabxanaya təmirdən sonra 5 min nüsxə kitab fondu əlavə olunub: "Hazırda kitabxananın fondunda ümumilikdə 20 minə yaxın nəşr var. Fond Azərbaycan, rus və ingilis dillərində uşaq ədəbiyyatı, bədii, elmi ədəbiyyatlarla təmin olunub. Oxucular fondumuzdakı kitabları oxu zalında əyləşərək mütaliə edirlər. Həmçinin istədikləri kitabları 10 gün müddətinə evlərinə apara bilərlər".

Müsahibim qeyd edir ki, yenidənqurmadan sonra kitabxanada "Asudə vaxt mərkəzi" və "Book kafe" yaradılmışdı: "Təəssüflər olsun ki, "Book kafe" hazırda müəyyən səbəblərdən fəaliyyətini dayandırıb. "Asudə vaxt mərkəzi" ilə müxtəlif dərnəklər (fortepiano, kompüter, xarici dil, rəsm və s.) üzrə işini davam etdirir. Bu mərkəz yaradıldığı ilk gündən sərbəst fəaliyyət göstərirdi. Bu ilin əvvəlindən isə Sabunçu rayon MKS-nin tabeliyinə verilib".

"Asudə vaxt mərkəzi"ndəki dərnəklərdə iştirak üçün münasib qiymətlər təklif olunur: "Uşaqlar qrup şəklində dərnəkdə iştirak etmək istəyirsə, hər ay 25-30 manat, fərdi şəkildə isə 40-50 manat ödəniş etməlidirlər. Uşaqlar istədikləri vaxt dərnəklərdə iştirakını dayandıra bilər. Hazırda yay tətili ilə əlaqədar dərnəklər müvəqqəti bağlıdır. Dərnəklərimiz sentyabr ayından yenidən fəaliyyətini davam etdirəcək".

Kitabxanada müxtəlif tədbirlər, sərgilər, yazıçı və şairlərlə görüşlər keçirilir. Uşaqların kitabxanaya marağını cəlb etmək məqsədilə məktəblərdə uşaqlarla görüşlər təşkil olunur. Kitabxananın fəaliyyəti barədə sosial şəbəkə hesablarında oxuculara mütəmadi məlumat verilir. Şəfiqə Həkimova fürsətdən istifadə edərək qəzetimiz vasitəsilə də oxucuları kitabxananın xidmətlərindən daha çox istifadə etməyə, keçirilən tədbirlərə qatılmağa çağırdı.

***

Bakıxanov qəsəbəsi, Sülh küçəsi 2 ünvanında yerləşən kitabxananı xoş əhval-ruhiyyə ilə tərk edirik. Çünki hər bir mütərəqqi yenilik könül açır, maraq doğurur. Qonağı olduğum bu kitabxana xüsusilə uşaq və gənclər üçün bilik məkanı olmaqla yanaşı, həm də əyləncəli vaxt keçirmək üçün münasib ünvandır.

**Nurəddin Məmmədli**

## Xatirə təqvimi — 2–5 avqust

### Azərbaycan

**2 avqust 1949** – Xalq artisti, tanınmış qarmon ifaçısı Kamil Səfərəli oğlu Vəzirov (1949 – 13.2.2018) Bakıda doğulub. Azərbaycan Dövlət Mahnı Teatrının solisti olub.

**2 avqust 1969** – Milli səhnəmizin ilk azərbaycanlı qadın müğənnilərindən biri, Xalq artisti Həqiqət Əli qızı Rzayeva (20.5.1907 – 1969) vəfat edib.

**2 avqust 1980** – Görkəmli teatr rejissoru, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Səməd Mənsur oğlu Kazımov (14.1.1923 – 1980) dünyasını dəyişib. Akademik Milli Dram Teatrında baş rejissor işləyib. Gənc Tamaşaçılar, Rus Dram, Musiqili Komediya teatrlarında tamaşalar hazırlayıb.

**2 avqust 1984** – SSRİ Xalq artisti, görkəmli dirijor və bəstəkar Niyazi (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə; 20.8.1912 – 1984) vəfat edib. "Xosrov və Şirin" operası, "Çitra" baleti, "Rast" simfonik muğamı və s. əsərlərin müəllifidir.

**2 avqust 2002** – Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə Qazax rayonundakı M.P.Vaqifin xatirə muzeyi "M.P.Vaqif və M.V.Vidadinin xatirə muzeyi" adlandırılıb.

**3 avqust 1933** – Əməkdar incəsənət xadimi, dirijor Ləman Həsən qızı Atakişiyeva (1933-2015) Bakıda anadan olub.

**4 avqust 1909** – Şair Oruc Hüseyn oğlu Qoşqarlı (1909-1989) anadan olub.

**4 avqust 1915** – Görkəmli aktyor, Xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov (1915 – 25.1.1984) Gəncədə doğulub. Gəncə Dram, Akademik Milli Dram teatrlarında çalışıb. "Bir qalanın sirri", "Qatır Məmməd", "Nəsimi", "Əhməd haradadır?", "Tütək səsi" filmlərində yaddaqalan obrazlar yaradıb.

**4 avqust 1939** – Əməkdar artist Ofeliya Kamal qızı Məmmədzadə (1939 – 11.7.2007) Bakıda anadan olub. Akademik Dram, Musiqili Komediya teatrlarında çalışıb. Filmlərdə ("Bir cənub şəhərində", "Yenilməz batalyon"), teletamaşalarda maraqlı rollar oynayıb.

**4 avqust 1946** – Xalq artisti Rafiq Eyyub oğlu Hüseynov (1946 – 26.10.2017) Şuşada doğulub. 30 ilə yaxın Azərbaycan Televiziyasının aparıcı diktorlarından biri olub.

**5 avqust 1890** – Opera müğənnisi, Xalq artisti Məmmədtağı Abbas oğlu Bağırov (1890 – 16.4.1961) Bakıda doğulub. 1925-ci ildən Opera və Balet Teatrının solisti olub.

**5 avqust 1896** – Xalq artisti, vokalçı Roman Maksimoviç Trifonov (1896–1966) Saratovda doğulub. 1948-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub.

**5 avqust 1937** – Xalq artisti, tanınmış skripka ifaçısı Sərvər Soltan oğlu Qəniyev (1937 – 5.9.2010) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasının solisti, Qahirə Konservatoriyasında (Misir) kafedra müdiri (1971-1979), 1991-ci ildən Türkiyənin Bilkənd Universitetinin professoru, simfonik orkestrinin bədii rəhbəri olub.

**5 avqust 1948** – Əməkdar rəssam Arif Əli oğlu Məhərrəmov (1948 – 9.8.2022) anadan olub. "Azərbaycanfilm"də bir sıra bədii ("İşgüzar səfər", "Qocalar, qocalar", "O dünyadan salam" və s.) və animasiya filmlərinin quruluşçu rəssamı olub.

**5 avqust 1950** – Teatr və televiziya rejissoru Eyvaz Məsud oğlu Vəliyev (1950–2002) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrında quruluşçu rejissor işləyib.

**5 avqust 1950** – Əməkdar mədəniyyət işçisi, teatrşünas Kəmalə Məmməd qızı Cəfərzadə (1950 – 31.7.2019) anadan olub. Azərbaycan Teatr Xadimləri İttifaqında, Azərbaycan Dövlət Tərcümə Mərkəzində çalışıb.

**5 avqust 1998** – Prezident Heydər Əliyevin sərəncamı ilə Bakıdakı Şəhidlər xiyabanında memorial abidə – "Əbədi məşəl" kompleksi ucaldılıb.

**5 avqust 2017** – Prezident İlham Əliyev görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlunun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**2 avqust 1834** – Fransız memarı Frederik Ogüst Bartoldi (Frederic Auguste Bartholdi; 1834-1904) anadan olub. ABŞ-nin Nyu-York şəhərindəki "Azadlıq" heykəlinin müəllifidir.

**2 avqust 1932** – İrland əsilli ingilis aktyoru Piter O'Tul (Peter Seamus O'Toole; 1932-2013) anadan olub. Filmləri: "Milyonu necə oğurlamalı?", "Kaliqula", "Ərəbistanlı Lourens" və s.

**3 avqust 1832** – Xorvat bəstəkarı və dirijoru İvan Zays (1832-1914) anadan olub.

**3 avqust 1994** – Rus aktyoru, SSRİ Xalq artisti İnnokenti Smoktunovski (1925-1994) vəfat edib. Filmləri: "Hamlet", "Avtomobildən qorun", "Cinayət və cəza" və s.

**4 avqust 1859** – Norveç yazıçısı Knut Hamsun (Pedersen; 1859-1952) anadan olub. "Torpağın şirəsi" əsərinə görə ədəbiyyat üzrə Nobel mükafatı (1920) alıb.

**4 avqust 1901** – Amerika caz musiqiçisi, bəstəkar Lui Armstronq (Louis Daniel "Satchmo" Armstrong; 1901-1971) anadan olub.

**5 avqust 1844** – Rus boyakarı və qrafiki İlya Yefimoviç Repin (1844-1930) anadan olub. Məşhur əsərləri: "Burlaklar Volqada", "Tövbədən imtina", "İvan Qroznı və oğlu İvan" və s.

**5 avqust 1850** – Fransız yazıçısı Gi de Mopassan (Henry Rene Albert Guy de Maupassant; 1850 – 6.7.1893) anadan olub. Romanları: "Həyat", "Əziz dost", "Arzu alovu" və s.

**5 avqust 1860** – İngilis rəssamı Luis Veyn (Louis William Wain; 1860-1939) anadan olub.

**Hazırladı: V.Orxan**

# Realist rəssamlıqda öz üslubu ilə tanınmaq

## Abbas Məmmədovun yaradıcılığı haqqında

İncəsənət sivilizasiyanı zirvəyə daşıyan nərdivandır. Kətan üzərində usta fırçası ilə həkk olunan rənglər həyatımızın ən dərin məqamlarına nüfuz edən, həyati funksiyamızı vizual sənət ilə birləşdirən fenomendir. Rəssam Abbas Məmmədov da bunu əsərlərində məharətlə ifadə edir.

Realist və modern baxış tərzinə sahib rəssam bu gün milli rəngkarlığımızı bacarıqla təmsil edən istedadlar sırasındadır. Deyirlər ki, rəsm instinktiv emosional vəziyyətin ən dolğun ifadəsidir. Öz bədii zövqünə, perspektivinə, mövzunu idarə etmə tərzinə, lirik münasibətlərinə inanan Abbas Məmmədovun kompozisiyalarında cizgilər harmonik aura ilə kombinə olunur. Orijinal, yaradıcı, dinamik, zəruri və sərbəst ifadənin izində irəliləyən peşəkar rəssamın rəng-forma ilə işıq-kölgə balansı kətan üzərində əksini tapır.

Abbas Məmmədov 1986-cı ildə Bakıda anadan olub. O, 2001-2005-ci illərdə Əzim Əzimzadə adına Rəssamlıq məktəbində (indiki İncəsənət Kolleci), 2005-2009-cu illərdə isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bakalavr pilləsində təhsil alıb. 2007-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

İnsan asanlıqla öz peşəsinin ustası olmur. Oxumaq, araşdırmaq, öyrənmək həvəsini itirməmək püxtələşmək üçün zəruri şərtlərdir. Bundan başqa, rəssam Abbas Məmmədovun istedadının irsi-mənəvi kökləri də mövcuddur. O, dəyərli rəssam Şahpələng Məmmədovun davamçısıdır.

Realist rəssamlar təbii işıqlandırma, dəqiq proporsiyalar və real həyat obyektlərinin ətraflı təsviri kimi üsullardan istifadə edərək dünyanı mümkün qədər dəqiq əks etdirməyə çalışırlar. Abbas Məmmədovun da üslubunun özəyində təntənəli bir "sadəlik" dayanır. Həddindən artıq bəzək, pafos və yaxud sünilikdən qaçan rəssamın kətan üzərində əks etdirmək istədiyi əsas nüans təbii gözəlliyin tərənnümü və gerçəkçiliyə xas xüsusiyyətlərdir.

Bilirik ki, realist rəssamlar adətən dünyəvi mövzular ilə maraqlanırlar. Bu da həmin üslubu təkcə bədii yox, həm də ictimai xarakterə bürüyür. Abbas Məmmədovun da mövzulara yanaşma tərzi dünyəvi və obyektiv səciyyə daşıyır. O, təfərrüata böyük diqqət yetirir, dəqiq rənglərdən, işıqlandırmadan və perspektivdən istifadə edir. Qədimi ab-havanı hər bir xırdalığında hiss etdiyimiz kompozisiyaların müəllifi olan rəssam soyuq və isti rənglərin ahəngini kətanda məharətlə təqdim edir. Fərdi və orijinal dizayn anlayışını özü ilə tamaşaçı arasında körpüyə çevirən müəllif canlı və enerji dolu kompozisiyalar yaradır.

Rəssamın əsərlərində həm ənənələrə, həm Şərq sənətinə, həm də Qərb təsviri sənətinə marağı özünü büruzə verir. Onun maraqlı kompozisiyaları arasında "Payız nemətləri", "Yazın nəfəsi", "Liliyaların simfoniyası", "Üzüm və narlar", "Avqust", "Sehrli musiqi", "Mis qablarla natürmort", "Üzüm və xrizantemalarla natürmort", "Keçmişdən gələcəyə", "Muğam", "Naxışlar", "Abşeron yayı", "Əcdadlarımızın mirası", "Muğam", "Tariximizin sədası", "Yasəmənlər və poeziya", "Musiqi", "Sehrli çıraq", "Güllərin alleqoriyası" və s. əsərləri qeyd edə bilərik.

Rəssamın realizm cərəyanında icra etdiyi kompozisiyalarda holland rəssamlığının "qızıl çağı" və barokko dövrünə xas xüsusi xarakteristika vardır.



Bu tərz kompozisiyalara adətən qara və yaxud da qəhvəyi arxa fonlar xas olsa da, Abbas Məmmədovun əsərlərində arxa fonda müxtəlif çeşnilərlə bəzənmiş xalça nümunələri və yaxud yurdun və tarixin əzəmətini özündə əks etdirən memarlıq tikililərini görmək mümkündür.

Memarlıq tikililəri, şəhər mənzərəsi, marina janrında mövzulara da müraciət edən rəssamın "Bakı panoramı", "Şirvanşahlar sarayı", "Bulvar", "Bakının işıqları" və s. əsərləri təqdirəlayiqdir.

Abbas Məmmədovun yaradıcılığında bir başqa aspekt isə abstrakt üsluba müraciət etməsidir. Rəssamın realizmdən abstrakta keçid etməsi olduqca diqqətəlayiqdir. Modern kompozisiya düzümünü rəssam xüsusi kolorit həlli və həndəsi düzüm ilə icra edir. Kətan üzərində yağlı boya ilk baxışda sanki pastel boyanı və yaxud flamasteri xatırladır. Lakin harmonik rəng keçidləri və əsəri ritmik edən cizgilər müəllifin məharətini göz önünə gətirir. Peşəkar fırça ustasının palitrası sanki günəşdən güc alır, al-əlvan çalarlarla çulğalanır. İncə və şux çalarlar rəssamın aspektindən gördüyümüz qədim dünyanı işıqlandırır. Bununla belə, rəssamın düşüncələrinin lövhəsində cızılan hər bir mənzərə kətan üzərində müasir kontekstdə həll olunur. "Şirvanşahlar ansamblı", "Aşağı Gövhər ağa məscidi. Şuşa", "Rənglər şəhəri", "Abşeron motivi", "İpək Yolu" kimi tablolar bu qəbildəndir.

İncəsənətin formalaşmasında müəllimlərin rolu danılmazdır. İncəsənətin gələcəyi üçün gənc sənətkarların yetişməsinə töhfələr verən Abbas Məmmədova bədii yaradıcılığı ilə bərabər, bu fəaliyyətində də uğurlar diləyirik.

**Nigar Hətəmova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

# "Zirvəyə gedən yolda" Azərbaycan xalça sənəti

## Milli Xalça Muzeyinin kolleksiyasından nümunələr Latviyada sərgilənir





Latviyanın Gülbene şəhərində Tarix və İncəsənət Muzeyinin təşkilatçılığı ilə "Divi Juliji" VI Beynəlxalq İncəsənət Festivalı keçirilib.

Ənənəvi festival bu şəhərdə anadan olan tanınmış iki rəssam, tətbiqi sənət ustaları Yulius Madernieks (1870-1955) və Yulius Straumenin (1874-1970) xatirəsinə həsr edilib.

Tədbir çərçivəsində Yulius Straumenin Qafqazda, o cümlədən Azərbaycanda apardığı etnoqrafik tədqiqatlara həsr olunan "Zirvəyə gedən yolda" adlı sərgi açılıb. Ekspozisiyada Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid 16 ənənəvi xalça məmulatı yer alıb. Sərgidə yüksək bədii keyfiyyəti, özünəməxsus kompozisiyası və rəng çalarları ilə seçilən Qarabağ, Bakı və Şirvana aid çul, ləməqabağı, məfrəş, dəvəbəzəyi, cecim, duz torbası, qaşıqdan, xurcun, heybə, dəstərxan, corab, çanta və s. nümayiş olunur. Sərgidə həmçinin Şuşanın tarixi memarlıq abidələrindən ibarət foto-slayd təqdim olunur.

Azərbaycanın Latviyadakı Səfirliyinin dəstəyi ilə təşkil edilən sərgi avqustun 25-dək davam edəcək.

Festivalın ilk günü "Divi Juliji. Virsotnes"/ "İki Yulius. Zirvələr" adlı beynəlxalq konfrans da keçirilib. Konfransda Azərbaycan Milli Xalça Muzeyi Elmi-tədqiqat və milli irsin qorunub saxlanılması şöbəsinin müdiri sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən Əhmədova "Azərbaycan xalqının adət-ənənələrində və məişətində xalça məmulatları" mövzusunda çıxış edib. O, xalça məmulatlarının xalqımızın gündəlik həyatının ayrılmaz hissəsi olduğunu bildirib. Onların təkcə utilitar əşya deyil, gözəl bədii həllə, naxış sisteminə malik yüksək estetik zövq göstəricisi hesab olunduğunu diqqətə çatdırıb.

Konfransda Azərbaycan Milli Xalça Muzeyinin Elmi şurasının üzvü, sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyeva "Straumenin Azərbaycan yaradıcılığının beşiyi Şuşada fəaliyyəti" mövzusunda çıxış edib.

Müxtəlif ölkələrdən olan mütəxəssislərin "Yulius Straumenin eskizlərində Qarabağ xalçaları", "XX əsrin I yarısında toxuculuq məktəbləri", "Yulius Madernieksin pedaqoji baxışları və prinsipləri" və s. mövzularda məruzələri dinlənilib.

# Rafaelindir, yoxsa yox?...

## Məşhur tablonun bənzərini süni intellekt yoxlayıb

Avropada İntibah dövrünün ən görkəmli nümayəndələrindən birinin – məşhur italyan rəssamı Rafael Santinin (1483-1520) "Sikstin Madonnası" tablosu ətrafında sənət mübahisələri illərdir davam edir.

Bu günlərdə rəssamın Drezden Qalereyasında saxlanılan məşhur əsərinə çox bənzəyən tablonun orijinallığını yoxlamaq üçün süni intellektdən istifadə edilib.

Ekspertlərin bir çoxu iddia edirlər ki, həmin tablo da dahi rəssamın orijinal əsəri ola bilər.

Bu tablo onun sahibi olan fondun adı ilə "Tondi de Bresi" adlandırılıb. Müəllifi hələlik dəqiqləşməyən bu tablonu Antoni Ayers adlı kolleksiyaçı 1995-ci ildə Çikaqoda əntiq əşyalar mağazasından 30 min dollara alıb. Kolleksiyaçı bu əsərin məşhur italyan rəssamına aid olduğunu iddia etsə də, bunu hələlik sübuta yetirə bilməyib.

Süni intellekt bu iki əsəri müqayisə edib və onların arasında uyğunluq səviyyəsi 97 faiz olub. Süni intellektin qənaətinə görə, bu əsər Rafael Santinin fırçasından çıxıb.

Süni intellekt insanın gözü ilə görə bilmədiyi nüansları da aşkara çıxarır. Bununla belə, sənətşünaslar yenə də ortaq məxrəcə gələ bilməyiblər. Bredford Universitetinin tədqiqatçıları israr edirlər ki, süni intellektin nəticələri ekspertlərin rəyindən daha obyektivdir.



# 1 milyonluq üzük və 2 milyonluq royal

## Tanınmış musiqiçilərin əşyaları hərraca çıxarılıb



Məşhur amerikalı reper Tupak Şakurun üzüyü hərracda rekord məbləğə satılıb. 1996-cı ildə reperin xüsusi sifarişi ilə hazırlanan tac formalı üzük yeni sahibinə 1 milyon dollara başa gəlib.

Üzüklə bərabər, T.Şakurun imzası olan altı məktub və "Trapped" sinqlının orijinal demo lenti daxil olmaqla, reperə məxsus digər şəxsi əşyalar da hərraca çıxarılıb.

Xatırladaq ki, T.Şakur 1996-cı ildə ABŞ-nin Las-Veqas şəhərində silahlı atışma nəticəsində 25 yaşında dünyasını dəyişib. O, qısamüddətli karyerasına baxmayaraq, 75 milyon albom satışı ilə hip-hopun ən reytinqli reperinə çevrilib.

***

Məşhur "Beatles" qrupunun solisti Con Lennona və Endi Uorhola məxsus olmuş "Baldwin" firmasının royalı isə ABŞ-nin Merilend ştatındakı Tauson şəhərində "Alex Cooper Auctioneers" hərracına çıxarılacaq.

Con Lennon "Concert Grand Model D" markalı royalı 1978-ci ildə Nyu-Yorkdakı "Baldwin Factory Store" mağazasından alıb. O, bir ildən sonra musiqi alətini dostu, incəsənət meneceri və öz kuratoru Sem Qrinə hədiyyə edib. 1983-cü ildə isə Sem Qrin royalı müvəqqəti istifadə etmək üçün Endi Uorhola verib.

Royalın üzərində "Con və Yokodan Semə hədiyyə" qravürası olan lövhəcik var. Hərrac sentyabrın 30-da keçiriləcək. Lotun ilkin qiyməti 2 milyon dollardır.




Olaylar, faktlar
(2 – 5 avqust)

**2 avqust** Azərbaycan Kinosu Günüdür. 2 avqust 1898-ci ildə Bakıda fotoqraf və operator Aleksandr Mişonun çəkdiyi bir neçə kinosüjet nümayiş olunub. Bu əlamətdar hadisə ilə Azərbaycanda kino tarixi başlanıb. Prezident Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamına əsasən, 2 avqust "Azərbaycan Kinosu Günü" elan olunub.

**5 avqust** Azərbaycanda "Hərbi Donanma Günü" kimi qeyd olunur. 5 avqust 1918-ci ildə keçmiş Rusiya imperiyasının Xəzərdəki hərbi gəmilərinin bazasında Azərbaycan Xalq Cümhuriyyətinin hərbi donanması təşkil olunub. Azərbaycan sovetləşəndən sonra hərbi-dəniz qüvvələri bolşevik Rusiyasının, daha sonra SSRİ-in Xəzər Hərbi Donanmasının tərkibinə daxil edilib. SSRİ-in dağılmasından sonra, 1992-ci ildə donanma Rusiya və Azərbaycan arasında bölünüb. Prezident Heydər Əliyevin 1996-cı ildə imzaladığı fərmanla 5 avqust – Azərbaycanda "Hərbi Donanma Günü" kimi təsis olunub.

### 251 il əvvəl...

**5 avqust 1772-ci ildə** Polşanın (Reç Pospolita) Rusiya, Prussiya və Avstriya arasında bölüşdürülməsinə dair birinci saziş – Peterburq konvensiyası imzalanıb. Sonrakı 20 ildə Polşa bu ölkələr arasında daha iki dəfə bölüşdürüldü və Polşa dövlətçiliyinə tamamilə son qoyuldu. Polşanın dövlətçiliyi 1918-ci ildə bərpa edildi.

### 240 il əvvəl...

**4 avqust 1783-cü ildə** Şərqi Gürcüstanın (Kartli və Kaxetiya çarlığı) Rusiyanın himayəsinə keçməsinə dair Georgiyevsk traktatı imzalanıb. Şimali Qafqazdakı Georgiyevsk qalasında (indiki Stavropol diyarında) bağlanan saziş çar II İraklinin Rusiyaya müraciətinə əsaslanırdı. Gürcü çarlığını Osmanlı və İrandan qorumağı öhdəsinə götürən Rusiya 1801-ci ildə bölgəni özünə birləşdirdi.

### 83 il əvvəl...

**2 avqust 1940-cı ildə** Moldova SSR-in yarandığı elan edilib. Sovet İttifaqının yeni respublikası Rumıniyadan qoparılan Bessarabiya ilə Ukrayna SSR-in tərkibində olan Moldova MSSR-in (indiki Dnestryanı bölgəsini əhatə edən muxtariyyət 1924-cü ildə təşkil edilmişdi) birləşdirilməsi nəticəsində yaradılmışdı.

### 63 il əvvəl...



**3 avqust 1960-cı ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Niger müstəqilliyini elan edib.

### 33 il əvvəl...



**2 avqust 1990-cı ildə** İraq qoşunları Küveyti işğal edib, Küveyt Əmiri Cabir əl-Sabah Səudiyyə Ərəbistanına qaçıb. Səddam Hüseyn Küveyti İraqın əyaləti elan edib. ABŞ başda olmaqla beynəlxalq birlik İraqın təcavüzünə dərhal münasibət bildirdi, BMT Təhlükəsizlik Şurasında müvafiq qətnamə qəbul edildi. İraqla danışıqlar nəticə vermədi, 1991-ci ilin yanvarında İraq əleyhinə koalisiyanın "Səhrada tufan" əməliyyatı ilə təcavüzə son qoyuldu.

### 30 il əvvəl...

**3 avqust 1993-cü ildə** Bakıda ilk beynəlxalq peyk rabitə sisteminin açılışı olub. ABŞ-nin "IDB" şirkətinin quraşdırdığı kompleks Azərbaycanı beynəlxalq telekommunikasiya sisteminə qoşub. Mərasimdə Ali Sovetin sədri, Prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyev iştirak edib.

### 20 il əvvəl...

**4 avqust 2003-cü ildə** Milli Məclisin növbədənkənar sessiyasında ARDNŞ-nin birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması barədə Prezident Heydər Əliyevin təqdimatı təsdiq edilib. Ankarada Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunan Heydər Əliyev müvafiq təqdimatı avqustun 2-də Milli Məclisə göndərmişdi. Milli Məclisin razılığından sonra Prezident Heydər Əliyevin müvafiq fərmanı ilə həmin gün İlham Əliyev Baş nazir təyin edilib.

**Hazırladı: V.Orxan**

# Əməkdar artist İtaliyada Verdinin "Traviata"sında çıxış edib

Azərbaycanın Əməkdar artisti, Prezident mükafatçısı Afaq Abbasova İtaliyada səhnələşdirilən operada çıxış edib.



İtaliya Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Kalabriya regionunun Tropea şəhərində dahi bəstəkar Cüzeppe Verdinin "Traviata" operası konsert formatında tamaşaçılara təqdim olunub. Konsert-tamaşada baş rolu Əməkdar artist Afaq Abbasova ifa edib. Opera italiyalı dirijor Alberto Veronesi tərəfindən idarə olunub.

Afaq Abbasova xoş təəssürat yaşadığını və bu ay ərzində İtaliyada məşhur ifaçılarla ikinci dəfə eyni səhnəni bölüşməkdən məmnunluğunu bildirib. Əməkdar artist ona dəstək olan hər kəsə təşəkkür edib.

Qeyd edək ki, Afaq Abbasova bundan öncə İtaliyanın Torre del Laqo şəhərində (Toskana vilayəti) 69-cu Puççini Festivalı (14 iyul – 26 avqust) çərçivəsində təşkil edilən konsert-tamaşada çıxış edib.

# Zəlzələ kimi konsert...

## 2,3 bal gücündə silkələnmə

Amerikalı müğənni Teylor Sviftin Sietl şəhərindəki (Vaşinqton ştatı) stadionda iyulun 22 və 23-də keçirilən iki böyük konserti 2,3 bal gücündə zəlzələ ilə müqayisə edilən seysmik aktivliyə səbəb olub.



Bu barədə Qərbi Vaşinqton Universitetinin geologiya professoru Ceki Kaplan-Auerbax CNN-ə bildirib. Professorun fikrincə, bu cür seysmik aktivliyin mənbəyi ya konsertdə tətbiq olunan güclü səs sisteminin dalğaları, ya da müğənnin on minlərlə pərəstişkarının eyni anda rəqs etməsi nəticəsində yarana bilər.

Sietldə keçirilən iki konsertdə ümumilikdə 144 min tamaşaçı iştirak edib.

Qeyd edək ki, Teylor Svift dünyanın ən çox qazanan müğənniləri sırasındadır. Pandemiyadan öncəki 2019-cu ildə müğənninin "Reputation Stadium Tour" albomu ilə bağlı konsert turundan təkcə ABŞ-də rekord həcmdə - 266 milyon dollar vəsait toplanmışdı.

# Antalyada turizmdə yeni rekord

Türkiyənin turizm paytaxtı Antalya xarici qonaq qəbulunda yeni rekord vurub. 2023-cü ilin əvvəlindən iyulun 30-dək Antalyaya gələn əcnəbi turist sayı 8 milyon 11 min nəfəri ötüb.



Bundan öncəki rekord 2019-cu ilin eyni dövründə qeydə alınmışdı: 8 milyon 4 min nəfər. Bu məlumatı Antalya valisi Ersin Yazıcı paylaşıb.

Valinin bildirdiyinə görə, iyulun 29-da Antalyaya təyyarə ilə gələn turist sayında da rekord göstərici əldə olunub. Həmin gün Antalya hava limanı 100 min turist qəbul edib. Bundan öncəki yüksək göstərici cari il iyulun 15-də qeydə alınmışdı: 97 min 900 nəfər.

Qeyd edək ki, bu rəqəmlər təkcə Antalyada deyil, ümumilikdə Türkiyədə cari il ərzində turizmin pandemiyadan öncəki səviyyəni geridə qoyacağını göstərir. 2019-cu ildə Türkiyəyə rekord sayda – 45 milyon nəfər əcnəbi gəlmişdi. 2020-ci ildə pandemiya səbəbindən xarici turist sayı cəmi 16 milyona düşmüş, 2021-ci ildə isə 30 milyon olmuşdu. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin məlumatına görə, 2022-ci ildə ölkə 44,5 milyon turist qəbul edib. Ötən il Türkiyəyə gələn hər üç turistdən biri Antalyanın payına düşüb.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kollektivi "Mədəniyyət" qəzetinin əməkdaşı Savalan Fərəcova oğulları
**Şamil və Kamil Fərəczadələrin**
vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir,
Allahdan səbir diləyir.
**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 1985
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641